HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 21 (812) ▪ 1 iyun 2016 www.vergiler.az Qiyməti: 55 qəp.


# Azərbaycan Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir



Mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib. Tədbirdə nitq söyləyən dövlətimizin başçısı bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir. Ona görə ki, ilk dəfə idi müsəlman aləmində demokratik respublika yaranmışdı. Bu respublikanı Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaratmışlar. Biz bununla fəxr edirik. Məhz bizdən sonra digər müsəlman ölkələrində demokratik respublikalar yaranmağa başlayıb.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə çox böyük hörmətlə yanaşıb və yanaşır, onların xatirəsini qəlbində yaşadır. «Əfsuslar ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı. Respublika iki ildən sonra süqut etdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir». Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan xalqı üçün yeni dövr - sovet dövrü başlandığını xatırladan dövlətimizin başçısı qeyd edib ki, həmin dövrdə respublikamız müstəqil siyasət apara bilmirdi, ancaq bununla bərabər, o dövrdə də müsbət məqamlar az deyildi. İlk növbədə, təhsillə bağlı məsələlər öz həllini tapdı və bu gün Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Elmin, mədəniyyətin, incəsənətin, kənd təsərrüfatının, sənayenin inkişafı sovet dövründə təmin olundu. Xüsusilə də Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 1970-ci illərdə Azərbaycan inkişaf etməyə başladı və qısa müddət ərzində donor respublikaya çevrildi. Sovet İttifaqında Rusiya Federasiyasından sonra iki respublika - Belarus və Azərbaycan özünü təmin edirdi və ümumittifaq xəzinəsinə öz maddi töhfəsini verirdi. «Bu, böyük nailiyyət idi. Çünki Azərbaycan o illərdə inkişaf etmiş, sənaye müəssisələri yaradılmış, kənd təsərrüfatı sürətlə inkişaf etmiş, xalqımız daha da yaxşı yaşamağa başlamışdır. Hesab edirəm ki, məhz buna görə, məhz o illərdə görülən işlərə və Heydər Əliyevə xalq tərəfindən olan hörmətə görə ən çətin anlarda xalqımız yenə də Ulu Öndərə üz tutdu, 1993-cü ildə onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini göstərdi».

1991-ci ildə bərpa edilən müstəqilliyi böyük tarixi şans, böyük sərvət kimi qiymətləndirən Azərbaycan Prezidenti bildirib ki, əfsuslar olsun ki, o illərdə ölkəmizə rəhbərlik edən şəxslər bu şansdan istifadə edə bilmədilər. Ölkədə yaranmış daxili çəkişmələr, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül, hərbi böhran və bütün bu xoşagəlməz hallar nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu dəhşətli vətəndaş müharibəsində qardaş qanı axıdıldı. Belə bir vəziyyətdən istifadə edən erməni millətçiləri, Ermənistan işğalçıları torpaqlarımızı işğal etdilər. 1992-ci ildə Şuşa və Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi əlaqə yarandı. Həmin ağır və faciəli şəraitdə xalq Heydər Əliyevə müraciət etdi. O, bu müraciətə öz dəstəyini verdi, hakimiyyətə gəldi və ondan sonra Azərbaycan inkişaf etməyə başladı.

Prezident İlham Əliyev 1996-cı ildən sonra ölkəmizdə iqtisadi sabitləşmənin təmin olunduğunu və iqtisadiyyatı inkişaf etdiyini, Azərbaycana xarici investorların gəldiyini, bütün sahələrdə irəliləyişlərin baş verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, məhz həmin illərdə həyata keçirilən işlərin sayəsində Azərbaycan uğurla, inamla irəliləyir: «2003-cü ildən bu günə qədər Azərbaycan Heydər Əliyev yolu ilə gedir, bu siyasətə sadiqdir. Əlbəttə dünya dəyişir, bölgə dəyişir. Biz indi tam fərqli geosiyasi vəziyyətdə yaşayırıq. Ancaq biz həm xarici, həm daxili siyasətlə bağlı prinsipial seçimimizə sadiqik. Azərbaycanda xalq vahid amal uğrunda çalışır, vahid amal ətrafında birləşib ki, ölkəmizi daha da gücləndirək, xalqımızın rifah halını yüksəldək, Azərbaycanın dünyadakı nüfuzu daha da artsın və biz dayanıqlı, uzunmüddətli inkişaf strategiyamızı icra edə bilək. Buna nail olmaq üçün əlbəttə ki, qarşımızda önəmli vəzifələr durur. Son illər ərzində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapır».

Bu gün ölkəmizdə təhlükəsizlik və sabitliyin möhkəm olduğunu, demokratik islahatların geniş vüsət aldığını xatırladan dövlətimizin başçısı Azərbaycanın bölgədə milli barışıq, tolerantlıq mühitini yaratması sayəsində bütün xalqların qarşılıqlı dəstək və hörmət şəraitində yaşadığını vurğulayıb. Qeyd edib ki, bizim Türkiyə, Rusiya, İran və Gürcüstan ilə həm ikitərəfli, həm çoxtərəfli formatlarda çox gözəl siyasi-iqtisadi, mədəni əlaqələrimiz var. Amma təəssüf ki, işğalçı Ermənistanın təcavüzkar siyasəti regionda sülh və təhlükəsizliyin möhkəmlənməsinə mane olur. Dövlətimizin başçısı erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icra edilməli olduğunu və status-kvo dəyişdirilməlisinə diqqət çəkərək Azərbaycan xalqı və dövlətinin heç vaxt tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyini bəyan edib. Prezident İlham Əliyev eyni zamanda, Azərbaycanın hərbi gücünü artırdığını və ordu quruculuğu prosesinin uğurla getdiyini də vurğulayıb.

Azərbaycan Prezidenti bildirib ki, indi isə biz yeni dövrdə yaşayırıq. Dünyada iqtisadi, maliyyə böhranı dərinləşir, neftin qiyməti aşağı səviyyədədir, gəlirlərimiz azalıb, təbii ki, xərclərimiz də azalır. Ancaq bununla bərabər, biz iqtisadiyyatı şaxələndirməklə, islahatlar aparmaqla bu çətinliyi aradan götürürük. «Ölkə iqtisadiyyatı dayanıqlı inkişaf etməlidir. Neft amilindən asılılıq aradan götürülməlidir. Hesab edirəm, hələ bizə bir neçə il lazımdır ki, bu hədəfə çataq və çatacağıq. Bu il həm sənaye potensialının artırılması, həm də kənd təsərrüfatının inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul olunub və konkret addımlar atılıbdır ki, bunlar özünü statistik göstəricilərdə də büruzə verəcək».

Prezident İlham Əliyev 2016-cı ilin sonuna qədər «Cənub» qaz dəhlizinin icrası ilə bağlı bütün lazımi tədbirlər görülməli olduğunu, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsinin gözlənildiyini və digər önəmli dəhlizin yaradılması istiqamətində vacib addımların atılacağını da diqqətə çatdırıb.

Sonra bir sıra şəxslərə dövlət mükafatlarının təqdim edilməsi mərasimi olub.

# Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə...

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib. Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib. 98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən - «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

# Azərbaycanın həm Avropa İttifaqı, həm də İtaliya üçün mühüm ölkələrdən biridir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da İtaliya Respublikası Senatının Avropa İttifaqının siyasəti daimi komissiyasının sədri, senator Vanino Kitinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. İtaliya-Azərbaycan əlaqələrinin çoxşaxəli olduğunu və ölkələrimizin bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin daha da inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın mühüm yer tutduğunu qeyd etdi. Azərbaycan ilə Avropa İttifaqı arasında da səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun və Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana uğurlu səfərlərini və Federika Moqerini ilə Vyanada keçirdiyi görüşü məmnunluqla xatırladı. Azərbaycanın Avropa İttifaqına üzv olan 8 ölkə ilə artıq strateji tərəfdaşlıq haqqında sənədlərin imzalandığını və qəbul edildiyini bildirən Prezident İlham Əliyev bu ölkələrdən birinin də İtaliya olduğunu vurğulayıb.

İtaliya Respublikası Senatının Avropa İttifaqının siyasəti daimi komissiyasının sədri, senator Vanino Kitinin ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı səfərin ikitərəfli və Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müzakirə edilməsi baxımından önəmli olacağını deyib. Azərbaycanın həm Avropa İttifaqı, həm də İtaliya üçün mühüm ölkələrdən biri olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan terrorizmə, ekstremizmə və radikalizmə qarşı qətiyyətlə mübarizə aparan bir dövlətdir.

# Dövlət Neft Şirkətinin yeni inzibati binasının açılışı olub

Mayın 30-da Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) yeni inzibati binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, binanın layihələndirilməsi işlərinə 2007-ci ildə başlanılıb. Müsabiqədə Fransa, İtaliya, Böyük Britaniya, Koreya Respublikası, Türkiyə və Azərbaycanın bir sıra nüfuzlu şirkətlərinin təkliflərinə baxılıb. Texniki şərtlərə uyğunluğu baxımından Koreya Respublikasının «Heerim Architects & Planners Co. Ltd» şirkəti tərəfindən təqdim olunan «Külək-alov» konsepsiyası daha cəlbedici hesab edilib və layihələndirmə işləri həmin konsepsiya əsasında aparılıb. 2010-cu ilin martında SOCAR-ın yeni inzibati binasının tikintisi üzrə xidmətlərin göstərilməsi üçün açıq müsabiqə elan edilib və dünyanın 8 nüfuzlu tikinti şirkətinin iştirak etdiyi tenderdə Türkiyənin «TEKFEN İnşaat» şirkəti qalib gəlib. Təxminən beş il ərzində aparılan tikinti işləri nəticəsində paytaxtın ən gözəl memarlıq nümunələrindən biri ərsəyə gəlib.

Qeyd olunub ki, SOCAR-ın yeni inzibati binası müasir beynəlxalq standartlara tam cavab verir və burada yüksək təhlükəsizlik tədbirləri görülüb. Binanın təhlükəsizlik və texniki sistemlərinin idarə edilməsi vahid mərkəzdən həyata keçirilir. Hündürlüyü 200 metr olan binanın 40 mərtəbəsi yerüstü, 2 mərtəbəsi isə yeraltı olmaqla ümumilikdə 5 hektar sahəni əhatə edir. Paytaxtda müasir memarlıq üslubu ilə fərqlənən və xüsusi gözəlliyi ilə seçilən binanın 34-37-ci mərtəbələri rəhbərliyin ofisləri, 18-33-cü mərtəbələr baş ofisin idarə və şöbələri, 3-16-cı mərtəbələr isə şirkətin struktur bölmələrinin ofisləri kimi fəaliyyət göstərəcək. Binanın konstruksiyası dəmir-beton özək divarlı və polad quruluşlu kompozit sistemə əsaslanıb. Rixter cədvəli üzrə 9 ballıq zəlzələyə davamlı olan binanın layihəsi Kanadada xüsusi beynəlxalq laboratoriyada virtual şəraitdə sınaqdan keçirilib və saatda 190 kilometr külək sürətinə hesablanıb.



Yeni inzibati binada üç konfrans zalı var. Buradakı 233, 110 və 22 yerlik konfrans zallarında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Binada hər cür avadanlıqla təchiz olunan iki fitnes mərkəzi də qurulub. Yeni binanın 450 nəfərlik yeməkxanasında, həmçinin 130 nəfər üçün nəzərdə tutulan kafeteriyasında da hər cür şərait yaradılıb. Binanın podyum hissəsində əməkdaşların istifadəsi üçün zəngin ədəbiyyatla təmin edilən kitabxana da var.Binanın yeraltı hissəsində 1045, ərazisində isə 240 avtomobil yerlik dayanacaqlar yaradılıb. Külək-tunel testinə uyğun olaraq, əsmə amplidudasının məhdudlaşdırılması məqsədilə bina damper sistemi ilə təchiz olunub. Fasadın təmizlənməsi və digər xidmətlər binanın üstündə yerləşən teleskopik səbətli kran vasitəsilə həyata keçiriləcək. Bina qoşa kabinəli liftlər və avtomatlaşdırılmış mərkəzi yönləndirmə sistemləri ilə təmin olunub.

## BU NÖMRƏMİZDƏ


İCTİMAİ NƏZARƏT ŞƏFFAFLIĞIN TƏMİN OLUNMASINA KÖMƏK EDİR 2

VERGİTUTMANIN AKTUAL MƏSƏLƏLƏRİNDƏN BİRİ... 3

DÖVLƏTİN VERDİYİ İMTİYAZLARDAN SUİ-İSTİFADƏ YOLVERİLMƏZDİR 4

KARTLA ƏMƏLİYYATLARIN DÖVRİYYƏSİNİ İKİ DƏFƏ ARTIRMAQ MÜMKÜNDÜR 5

# Sahibkarların cinayət məsuliyyəti yüngülləşdirildi

Cinayət Məcəlləsinə edilmiş bəzi əlavə və dəyişikliklər təsdiqlənməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, iyunun 1-dən etibarən ölkədə qanunsuz sahibkarlıqla məşğul olan şəxslərin cinayət məsuliyyəti yüngülləşdirilib. Məcəllənin 192-ci (qanunsuz sahibkarlıq) maddəsinə əlavə edilən qeyd bölməsində göstərilir ki, 192.1-ci maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törədən şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur. Xatırladaq ki, indiyədək qanunsuz sahibkarlıqla məşğul olan şəxs cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya 6 ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı.




Qeyd edək ki, on altı il əvvəl qəbul edilmiş Cinayət Məcəlləsinin bəzi müddəaları bugünün reallıqları ilə üst-üstə düşmürdü. Bu illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafı və baş verən digər iqtisadi proseslər nəticəsində dövriyyədə olan məhsulların, xidmətlərin dəyəri və insanların gəlirləri bir neçə dəfə artsa da, məsuliyyətin yaranmasına səbəb olan məbləğin həcmi artırılmayıb. Məcəllədə məsuliyyət müəyyən edən həmin məbləğlərin dəyişməməsi hazırda ictimai təhlükə törətməyən əməllərə görə bir çox sahibkarların cinayət məsuliyyətinə cəlb edilməsinə səbəb olurdu. Bunun qarşısını almaq üçün Cinayət Məcəlləsində nəzərdə tutulmuş həmin məbləğlər artırılıb. Belə ki, əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkarlar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra isə bu hədd 10 dəfə artırılaraq məbləğ 20.000 manat səviyyəsinə qaldırılıb. Yəni 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər.

Bu da həmin məbləğə qədər olan əməllərin dekriminallaşdırılması deməkdir. İqtisadi fəaliyyət sahəsində olan cinayətlər fəslində cinayət məsuliyyəti yaradan hədd indiyədək 1000 manat müəyyən edilirdisə, dəyişikliklərdən sonra həmin məbləğ 20 dəfə artırılaraq 20.000 manat olub. Bu da həmin məbləğə qədər olan hissədə əməllərin dekriminallaşdırılması deməkdir.

Başqa bir dəyişikliyə əsasən, ilk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad ediləcəklər. Bu dəyişiklik nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilir. Dekriminallaşan əməllərə görə yeni dəyişikliklər qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəza çəkən şəxslər məsuliyyətdən azad olunurlar, habelə sözügedən qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

**Rəşad SADIQOV**

# IOTA İcraiyyə Şurasının növbəti iclası keçirilmişdir

Avstriya Respublikasının paytaxtı Vyana şəhərində keçirilmiş iclas zamanı 2015-ci ilin fəaliyyət və maliyyə hesabatı, 2016-cı ilin büdcəsinə dəyişikliklər, 2017-ci ilin büdcəsi, 2017-ci il üçün tədbirlər planı təsdiq edilmiş, eləcə də təşkilatın kommunikasiya strategiyası, məlumat məxfiliyi siyasəti, Avropa İttifaqı, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə anlaşma memorandumları müzakirə edilmiş, İcraiyyə Şurasının üzvləri arasında qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Azərbaycanı vergilər nazirinin tədris və insan resurslarının inkişafı sahələri üzrə müşaviri Ələkbər Məmmədov və nazirliyin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəis müavini Orxan Musayev təmsil etmişlər.

# Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün nədən başlamalı...

Vergilər Nazirliyi tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə yardım məqsədilə mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilir. Nazirliyin rəsmi internet səhifəsində «Sahibkarın vergi bələdçisi» bölməsi vasitəsilə sahibkarlıq fəaliyyətinə başlamaq istəyən vətəndaşlara lazım olacaq bütün zəruri məlumatlar çatdırılır. Bu bölmədə vergi ödəyicisinin vergi orqanında qeydiyyatından, bank hesabının açılmasından tutmuş, NKA-nın qeydiyyata alınmasına qədər bütün məlumatlarla tanış olmaq mümkündür. Bu günlərdə isə nazirliyin internet səhifəsində daha bir köməkçi material yerləşdirilib. «Biznesə necə başlamalı?» adlı sənəddə sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslərə biznesin planlaşdırılması, sahibkarlıq prosesi, maarifləndirilmə, təhlilin aparılması və müvafiq qərarın qəbul edilməsi məsələləri izah olunur.

Yeni bölmədə qeyd edilir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq arzusunda olan şəxs biznesin planlaşdırılması üçün ilk olaraq hansı fəaliyyətlə məşğul olmaq istədiyini dəqiqləşdirməlidir. Çünki təcrübəsi və bacarığı olan sahələrdə fəaliyyət göstərmək digər rəqiblər qarşısında bir sıra üstünlüklər verə bilər. Bununla yanaşı, sahibkarlıq fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq, tələb edilən avadanlıqlar, qurğu və sair vasitələr, onları əldə etmək üçün lazım olan maliyyə vəsaiti və müvafiq ixtisasa malik işçi qüvvəsi barədə də dəqiq məlumata malik olmaq gərəkdir. Daha sonra bazar təhlil olunmalıdır: sahibkar təklif edəcəyi məhsulun potensial müştərilərinin sayı, oxşar məhsul təklif edən rəqib sahibkarlar barədə məlumatları təhlil edərək, bunun əsasında müvafiq qərarlar verə bilər. Satışın təşkili zamanı isə əsas nəzərə alınan amillərdən biri təklif edilən məhsulun qiymətidir. Qiymətin formalaşmasında bir sıra faktorlar nəzərə alınmalıdır: məhsulun hazırlanmasına çəkilən ümumi xərclər, sahibkarın gəlirlilik norması, bazarda eyni məhsulun orta qiyməti və s. Bununla yanaşı, məhsulun satıcısı əvvəlcədən alıcılarla hazır məhsulun satışı ilə bağlı razılığa gələ bilər.

Sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi üçün 2 əsas maliyyə resurslarından istifadə edilir: şəxsi kapital və cəlb edilmiş vəsaitlər. Şəxsi kapital sahibkarın özünə məxsus olan və sahibkarlıq fəaliyyətinə yatırmaq üçün istifadə etdiyi maliyyə vəsaitidir. Cəlb olunmuş vəsait dedikdə isə digər mənbələrdən əldə edilən pul resursları nəzərdə tutulur.

Biznesi ətraflı planlaşdırdıqdan və tələb olunan maliyyə vəsaiti əldə edildikdən sonra sahibkarlıq fəaliyyətinə başlamazdan əvvəl vergi ödəyicisi vergi orqanında qeydiyyata alınmalı, əldə etdiyi gəlirdən vergi hesablamalı, bəyan etməli və dövlət büdcəsinə ödəməlidir. Fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə fərdi sahibkar kimi və ya hüquqi şəxs yaradaraq məşğul ola bilər. Vergi ödəyicisi kimi uçota alınan yerli fiziki şəxslər şəxsiyyət vəsiqəsinin surəti, əcnəbi və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən onlara verilmiş vəsiqə ilə «Fiziki şəxsin vergi uçotu haqqında Ərizə», hüquqi şəxslər isə «Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında ərizə» və dövlət qeydiyyatı üçün tələb olunan digər sənədləri vergi orqanına təqdim etməlidirlər. Müvafiq ərizə formalarında, digər məlumatlarla yanaşı, məşğul olunacaq fəaliyyət növü və vergitutma sistemi qeyd edilməli və həmin məlumatlarda sonrakı dövrdə hər hansı dəyişiklik baş verdikdə, vergi orqanına bu barədə 40 gün ərzində məlumat təqdim olunmalıdır.

Vergi orqanında uçota alınarkən, Vergilər Nazirliyinin göndərdiyi məlumata əsasən, sahibkar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda qeydiyyata alınır. Sahibkar tərəfindən əmək qanunvericiliyinə uyğun olaraq muzdlu işə cəlb edilmiş hər bir işçi ilə yazılı əmək müqaviləsi bağlanılmalı və hüquqi qüvvəyə malik olması üçün onların bildirişləri elektron informasiya sisteminə daxil edilməlidir. Sahibkar öz fəaliyyətini düzgün dəyərləndirmək və maliyyə vəziyyəti barədə dolğun məlumat almaq üçün mühasibat uçotunu aparmalıdır.

**AYTƏN**

# Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26, (055) 201 99 26,
(+99412) 403 87 90, (050) 254 25 52,
(+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

# İctimai nəzarət şəffaflığın təmin olunmasına kömək edir

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşkilatçılığı və Azərbaycan Prezidenti yanında QHT-lərə dövlət dəstəyi Şurasının maliyyə dəstəyi ilə «İctimai iştirakçılıq və ictimai şuraların təşviqi» layihəsinə start verilmişdir. Ötən həftə dövlət qurumları arasında ilk olaraq Vergilər Nazirliyində bununla bağlı müzakirələr aparılmışdır.

Dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi tədbirdə çıxış edən Milli Forumun prezidenti Rauf Zeyni bildirmişdir ki, 2014-cü ilin iyunun 1-dən qüvvədə olan «İctimai iştirakçılıq haqqında» Qanuna müvafiq olaraq, artıq bir neçə dövlət qurumunda ictimai şuralar yaranıb: «Bu layihənin əsas məqsədi bu istiqamətdə təbliğat-təşviqat işləri həyata keçirmək, ictimai şuraların mahiyyətini və qarşıya qoyulan məqsədlərə çatmağın yollarını müzakirə etməkdir. İctimai iştirakçılıq vətəndaşları dövlətin idarə olunmasında iştiraka cəlb edir, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarət həyata keçirir, səmərəli qarşılıqlı fəaliyyət təşkil edilir, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarını təmin edir. İctimai iştirakçılıq şəffaflığın təmin olunmasında, insan və vətəndaş hüquqlarının müdafiəsində də mühüm rol oynayacaq».



*İctimai iştirakçılıq şəffaflığın təmin olunmasında, insan və vətəndaş hüquqlarının müdafiəsində də mühüm rol oynayacaq*

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Akif Musayev vurğulamışdır ki, ölkəmizdə mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin təmin edilməsi dövlətin ciddi maraq dairəsindədir: «Dünyanın qabaqcıl ölkələrində olduğu kimi, Azərbaycanda da həyata keçirilən vergi siyasətinin əsas vəzifəsi təkcə fiskal funksiyanın yerinə yetirilməsindən deyil, həm də ölkədə rəqabətli işgüzar mühitin yaradılması üçün vergi orqanları ilə vergi ödəyiciləri arasında konstruktiv dialoqun qurulmasından, yaranmış problemlərin aradan qaldırılmasına diqqətlə yanaşmaqdan, biznesə və vətəndaşlara vergi məsələlərində və innovasiyalarda yardımçı olmaqdan ibarətdir. Bu baxımdan, işgüzar dairələrlə, ictimai təşkilatlarla daha sıx işləmək, vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesində onların təkliflərini öyrənmək, qarşılıqlı əlaqələr üzrə ictimai rəyin öyrənilməsi həmişə Vergilər Nazirliyinin diqqət mərkəzində olmuşdur».

Tədbir müzakirə olunan mövzu ətrafında iştirakçıların fikir mübadiləsi ilə davam etdirilmişdir.

**A.NƏBİYEVA**

# Vergitutmanın aktual məsələlərindən biri...



*Kirayə haqlarından verginin hesablanması və ödənilməsi qaydaları ilə bağlı müxtəlif suallarla qarşılaşırıq. Vergilər Nazirliyi Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Şamil Ərəbovla müsahibəmizin mövzusu da əmlak kirayəsi və onun vergiyə cəlb olunması məsələlərinə həsr olunub.*

***- Şamil müəllim, əmlak kirayəsi ilə bağlı vergilər necə hesablanır və ödəniş necə həyata keçirilir?***

- Azərbaycan Respublikasının Mülki Məcəllənin 700.1-ci maddəsinə əsasən, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi əmlak sahibinə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 124.1-ci maddəsinə əsasən, daşınmaz əmlak üçün icarə haqqından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur. İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə icarəyə verən bu maddəyə uyğun olaraq 14 faiz dərəcə ilə vergini özü ödəyir və Vergi Məcəlləsinin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir.

Mənzil kirayəsi müqaviləsinin tərəfləri fiziki şəxslər olduğu halda kirayə haqlarından verginin hesablanması və ödənilməsi aşağıdakı qaydada həyata keçirilir:

Mənzili kirayəyə götürən fiziki şəxs vergi ödəyicisi kimi vergi orqanında uçotda olduğu halda (VÖEN-i olduğu halda) mənzili kirayəyə verən fiziki şəxsə ödədiyi icarə haqqından 14 faiz dərəcə ilə vergi tutmalı və həmin məbləği dövlət büdcəsinə ödəməlidir. İcarə haqqından vergi ödəyən fiziki şəxs vergi orqanına vergi bəyannaməsi təqdim etməlidir. Kirayə verənin əldə etdiyi gəlirdən ödəmə mənbəyində vergi tutulduğu üçün onun həmin gəlirindən vergi tutulmur.

Mənzili kirayəyə götürən fiziki şəxs vergi ödəyicisi kimi vergi orqanında uçotda olmadığı halda, mənzili kirayə verən fiziki şəxs VÖEN əldə etməli və ona ödənilən icarə haqqından xərclər çıxılmadan 14 faiz dərəcə ilə vergini hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Mənzili kirayə götürən diplomatik agent, konsulluq qurumu əməkdaşları və ya onlarla birgə yaşayan ailə üzvləri olduğu və kirayə haqqından ödəmə mənbəyində vergi tutulmadığı halda, müvafiq olaraq 1961-ci il 18 aprel tarixli «Diplomatik əlaqələr haqqında» Vyana Konvensiyasının 35-ci və 1963-cü il 24 aprel tarixli «Konsulluq əlaqələri haqqında» Vyana Konvensiyasının 52-ci maddələrini nəzərə alaraq kirayə verən vergi uçotuna alınıb kirayə haqqından vergini özü ödəyir.

Fiziki şəxs mənzili hüquqi şəxsdən kirayəyə götürdüyü halda, kirayə götürən fiziki şəxsin vergi orqanında qeydiyyatda olub-olmamasından asılı olmayaraq hüquqi şəxsə ödədiyi kirayə haqlarından ödəmə mənbəyində vergi tutulmur. Hüquqi şəxs əldə etdiyi həmin kirayə haqlarından 20 faiz dərəcə ilə mənfəət vergisi ödəyir.

***- Vətəndaşlar evi kirayəyə verərkən hansı posedurları keçməlidirlər?***

- Vətəndaş evini vergi orqanında qeydiyyatda olan şəxsə kirayə verdiyi halda kirayəyə götürən tərəfindən ona ödənilən kirayə haqlarından ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur və bu zaman evini kirayəyə verən şəxsin vergi orqanında uçota alınmaq, əldə etdiyi icarə haqqından vergi ödəmək və bu barədə vergi orqanına bəyannamə təqdim etmək öhdəliyi yaranmır.

Vətəndaş evini vergi orqanında qeydiyyatda olmayan fiziki şəxsə kirayə verdiyi halda özü yaşadığı yer üzrə vergi orqanına ərizə ilə müraciət etməli və həmin ərizəyə şəxsiyyətini təsdiq edən sənədin surətini əlavə etməlidir. Vergi orqanı vətəndaşın ərizəsi daxil olduğu gündən sonrakı 2 gün müddətində ona vətəndaşın vergi orqanında uçota alınmasını təsdiq edən və üzərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) göstərilən müvafiq şəhadətnamə verir.

Bundan sonra, VÖEN-i olan vətəndaş kirayə haqqından xərclər çıxılmadan əldə etdiyi gəlirdən dövlət büdcəsinə 14 faiz dərəcə ilə vergi ödəyir və növbəti ilin martın 31-dək vergi orqanına gəlir vergisinin bəyannaməsini təqdim edir.

***- Kirayə verən bu vergini ödəməkdən yayınıbsa, həmin şəxsə qarşı hansı cərimələr və sanksiyalar tətbiq oluna bilər?***

- Dövlət büdcəsinə ödənilməli olan vergilərin yayındırılmasına görə vergi ödəyiciləri Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələri ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar. Mənzilini kirayəyə verən və vergi ödəyicisi kimi qeydiyyata durmağa borclu olan vətəndaşa, habelə ödədiyi kirayə haqqından ödəmə mənbəyində vergini tutmağa və büdcəyə köçürməyə borclu olan şəxsə vergi ödəməkdən yayındığı halda aşağıdakı məsuliyyət tədbirləri tətbiq oluna bilər:

- Vergi Məcəlləsinin 58.2-ci maddəsinə əsasən, müəyyən olunmuş müddətdə vergi orqanlarında uçota alınmamasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir;
- Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, bəyannamə vermək öhdəliyi olan vergi ödəyicisi tərəfindən əldə etdiyi və ya ödədiyi icarə haqlarına görə vergi orqanına Vergi Məcəlləsi ilə müəyyən olunmuş müddətdə hesabat təqdim edilməməsinə görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir;
- Vergi Məcəlləsinin 58.1-ci maddəsinə əsasən verginin (o cümlədən, ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir;
- Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, vergi məbləğləri qanunvericiliklə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya ödəmə mənbəyində vergini tutmağa və büdcəyə köçürməyə borclu olan şəxsdən ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.

# Vergi Məcəlləsinə yeni dəyişikliklər təsdiq olunub

Prezident İlham Əliyev Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Qanunu təsdiq edib. Dəyişikliklərə əsasən, dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan ərazisindəki son dəmir yolu stansiyasında xarici dövlətlərə məxsus avtomobillərə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə yüklənərək ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə və əksinə daşındıqda 3 il müddətində yol vergisi və dövlət rüsumundan azad olunub. Dəyişikliklər iyunun 1-dən qüvvəyə minəcək.

İqtisadiyyat və sənaye nazirinin müavini Sahil Babayev bu qərarın Azərbaycandan xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin aşağı salınması və onların ixrac imkanlarının yaxşılaşmasına dəstək məqsədi daşıdığını bildirib. Qeyd edib ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında 2020-ci ilədək qeyri-neft sektorunun iqtisadiyyatda rolunun daha da artırılması nəzərdə tutulur. Hazırda ölkə iqtisadiyyatının 70 faizə yaxın hissəsi qeyri-neft sektorunun payına düşür. Yaxın 5 ildə bu rəqəmin daha da artırılması hədəf seçilib, eyni zamanda qeyri-neft məhsullarının ixracının artırılması başlıca məqsədlərdəndir. Bu baxımdan, qeyri-neft sektoru üzrə malların ixracının təşviqi və tranzit yükdaşımalarında daha səmərəli rejimin yaradılması mühüm əhəmiyyət kəsb edir. Xəzər hövzəsində ən böyük ticarət limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası layihələri, paytaxtda və regionlarda beynəlxalq hava limanlarının tikintisi, müasir avtomobil yolları şəbəkəsinin yaradılması ölkəmizin daşımalarda iştirak imkanlarını xeyli genişləndirir. Eyni zamanda, digər dəhlizlərlə müqayisədə yüklərin Azərbaycan ərazisindən keçməklə daha əlverişli şərtlərlə, yəni qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımalarının həcminin dəfələrlə artmasına imkan yaranır.

Nazir müavininin sözlərinə görə, Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, bu sahədə vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və bu sahədə həyata keçirilən siyasətin əlaqələndirilməsi məqsədilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası 2016-cı ilin ötən dövründə bir sıra mühüm addımlar atıb: tranzit prosedurları sadələşdirilib, xidmət haqları endirilib. Təkcə Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanları üçün tranzit gediş-gəliş xərcləri təqribən 40% aşağı salınıb. Nəticədə cari ilin ilk rübündə ötən ilin müvafiq dövrü ilə nisbətdə daşımaların həcmi 7,3 dəfə artıb. S.Babayev bildirib ki, hazırda bu sahədə vahid prinsip və şərtlərin müəyyən olunması, tariflərin optimallaşdırılması, daşıyıcılar ilə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, şəffaflığın təmin edilməsi, daşıma prosedurlarının sayının və müddətinin azaldılması, koordinasiya işlərinin gücləndirilməsi istiqamətində müvafiq işlər görülməkdədir. İxracatçıların qarşılaşdıqları əsas problemlərdən biri olan mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırılması üçün qanunvericiliyə bəzi dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Bundan başqa, dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi həyata keçiriləcək. Bu məqsədlə həmin sahələrin fəaliyyətini tənzimləyən Koordinasiya Şurasının idarəetmə sisteminin təkmilləşdirilməsi də nəzərdə tutulur. Ümumilikdə, həyata keçirilən islahatların əsas məqsədi milli ixracatçıların xarici bazarlara daha asan və rahat məhsul çıxarmasına imkan yaratmaqdır.

**Daşınmalar sahəsində sahibkarlara verilən bir sıra imtiyazlar, gömrük-vergi güzəştləri, ixracın asanlaşdırılması həm yerli sahibkarların ixrac qabiliyyətinin, həm də Azərbaycan vasitəsilə digər dövlətlərə mal aparan şirkətlərin sayının artmasına səbəb olacaq**

Daşınmalar sahəsində sahibkarlara verilən bir sıra imtiyazlar, gömrük-vergi güzəştləri, ixracın asanlaşdırılması həm yerli sahibkarların ixrac qabiliyyətinin, həm də Azərbaycan vasitəsilə digər dövlətlərə mal aparan şirkətlərin sayının artmasına səbəb olacaq. Bu sahədə yaradılan əlverişli şərait ixracla məşğul olan yerli və xarici şirkətlərin tranzit daşınmalarında fəallığının artmasına, ixracla məşğul olan sahibkarlar üçün rəqabət mühitinin daha da yaxşılaşmasına xidmət edəcək. Azərbaycanın ərazisindən keçən nəqliyyat dəhlizlərinin potensialından səmərəli istifadə olunması gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisini artıracaq, nəticədə tranzit daşınmalarından dövlət büdcəsində daxilolmaların həcmi xeyli yüksələcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, avtomobil nəqliyyatı və dəmir yolu vasitəsilə hansısa ölkə ərazisindən müvafiq gömrük məntəqəsinədək daşınan yüklərə yol vergisi ilə yanaşı, rüsum da ödənilməyəcək. Məsələn, İrandan keçməklə Astara dəmir yolu stansiyasına çatana qədər sahibkar yükə görə əvvəllər ödədiyi yol vergisi və dövlət rüsumundan azaddır: «Əvvəllər yol vergisi və dövlət rüsumu ödənildiyinə görə, Astara gömrük məntəqəsindən Astara dəmir yolu stansiyasına qədər olan məsafədə yükün daşınma xərci artırdı. Çünki Vergi Məcəlləsinə görə, yol vergisi ölkədə qalma müddəti, yükün həcmi və oxların sayı əsasında müəyyənləşdirilir. Nəticədə İran Astarası ilə Azərbaycan Astarası arasında 8 kilometrlik məsafədə daşınma xərcləri təxminən Astaradan Yalamaya qədər 500 kilometrlik dəmir yolu ilə daşınma xərclərindən cüzi fərqlənən bir həddə yaxınlaşmışdı. Dəyişiklikdən sonra isə daşınma xərclərinin azalması İran-Azərbaycan-Rusiya marşrutunun iqtisadi cəlbediciliyini daha da artıracaqdır. Bu isə Azərbaycan dəmir yolu təsərrüfatı üçün əlavə maliyyə imkanları və yük dövriyyəsinin genişlənməsi deməkdir. Digər tərəfdən, daşımalarla məşğul olan şirkətlər də həm maliyyə, həm də vaxt resurslarına qənaət etməkdən məmnun qalacaqlar».

İcraçı direktor deyib ki, yol vergisi və dövlət rüsumundan azad olunmanın 3 il müddətində nəzərdə tutulması optimal sayılmalıdır. Çünki Astara (Azərbaycan) - Astara (İran) dəmir yolunun tikintisi bu müddətdə yekunlaşa bilər. İran ərazisində Rəşt-Astara dəmir yolunun tikintisinin başa çatması ilə Şimal-Cənub dəhlizi üzrə dəmir yolu əlaqəsi tam təmin ediləcəkdir. Lakin indidən tranzit yüklərin bu marşrut üzrə cəlb edilməsi üçün Azərbaycan dövləti İran və Rusiya ilə fəal nəqliyyat siyasəti yürüdür. Azərbaycanda daşımalar üçün yol vergisinin və dövlət rüsumunun ləğv edilməsi ölkəmizi tranzit daşıma şirkətləri üçün davamlı və etibarlı tərəfdaşa çevirir.

**Elbrus CƏFƏRLİ**

# Təbliğat-təşviqat işləri uğurla həyata keçirilir

## Vergilər Nazirliyinin internet saytı və sosial şəbəkələrdəki səhifəsi populyarlığını saxlayır

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində böyük təcrübəyə, geniş xidmətlərə malik olan www.taxes.gov.az saytı yaradıldığı 2002-ci ildən bəri bir neçə dəfə təkmilləşdirilmiş, tərtibatı dəyişdirilmiş, yeni dizaynda istifadəçilərə təqdim edilmişdir. Müasir naviqasiya rahatlığı, yeni bölmələrin istifadəyə verilməsi ilə vergi ödəyiciləri üçün daha əlverişli və əlçatan olan saytda məlumatlar Azərbaycan, ingilis və rus dillərində yerləşdirilir. Rəsmi internet saytı vasitəsilə vergi ödəyiciləri yuxarı vergi orqanına (vəzifəli şəxsə) şikayət etmək, habelə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək imkanına malikdirlər. Məhz bu tədbirlərin nəticəsidir ki, bu sayta daxil olan və ondan istifadə edənlərin sayı günü-gündən çoxalır. Təkcə 2016-cı ilin aprel ayında Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 472.461 istifadəçi daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 39 faiz çoxdur. İnternet səhifəsinin «Qanunvericilik» (102.847 dəfə), «Media» (70.050 dəfə), «E-xidmətlər» (58.567 dəfə), «Haqqında» (40.018 dəfə) və «Bir pəncərə» (24.326 dəfə) bölmələrinə daha çox daxilolma qeydə alınmışdır. Aprel ayında «Sual-cavab» bölməsinə 117 müraciət üzrə 160 sorğu daxil olmuş, bundan mart ayı ərzində qəbul olunmuş 48 şəxsin 60 sorğusu da daxil olmaqla 152 müraciətdən 203-ü cavablandırılmış, 13 şəxsin 17 sorğusu may ayına keçirilmişdir. Bir sualın orta günlük cavablandırılma müddəti 4,77 iş günü olmuşdur. Cavablandırılmış sorğulardan 123-ü və ya 60,6 faizi 5 iş günü, 80-i və ya 39,4 faizi 6-15 iş günü ərzində cavablandırılmışdır.




İnternet səhifəsinin «Vergilər naziri ilə əlaqə» bölməsinə aprel ayında 116, cari il üzrə artan yekunla 589 müraciət daxil olmuşdur.

Vergilər Nazirliyi vergi ödəyicilərinə xidmət, məlumatlandırma və maarifləndirmə ilə bağlı sosial şəbəkələrdə də uğurla fəaliyyət göstərir. Aprel ayında nazirliyin «Facebook» sosial şəbəkəsindəki rəsmi səhifəsinin ümumi istifadəçilərinin sayı mart ayına nisbətən 904 sayda və ya 2,5 faiz artaraq 37.123-ə çatmışdır. Səhifə istifadəçilərinin maraq dairəsinə uyğun maarifləndirmə, məlumatlandırma, təbliğat və təşviqat xarakterli 28 mövzuda yerləşdirilmiş məlumatlarla 263.759 istifadəçi tanış olmuş, 5863 istifadəçi həmin məlumatları bəyənmiş, 559 istifadəçi onları paylaşmış, 17.834 istifadəçi isə səhifədəki videoları izləmişdir.

Vergilər Nazirliyinin «YouTube» videohostinqindəki kanalında rəsmi abunəçilərin ümumi sayı 656 nəfərə, yerləşdirilmiş videolara baxılma sayı isə ümumilikdə 149.902-yə çatmışdır. Bu kanalda ən çox baxılan 5 videoçarx - «Sadələşdirilmiş vergi bəyannaməsinin doldurulması qaydası» (2042 dəfə), «ƏDV bəyannaməsinin doldurulması qaydası» (552 dəfə), «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin (rüblük) doldurulması qaydası» (481 dəfə), «Gəlir vergisi bəyannaməsinin doldurulması qaydası» (305 dəfə), «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin doldurulması qaydası» (288 dəfə) olmuşdur.

Vergilər Nazirliyinin «Twitter» sosial şəbəkəsindəki rəsmi səhifəsinin izləyicilərinin sayı mart ayına nisbətən 19 sayda və ya 2,8 faiz artaraq 697 nəfərə çatmışdır.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

### Pensiyaçıların əmlak vergisi

**_Vergi Məcəlləsinin 199.3-cü maddəsində qeyd olunan pensiyaçılara hansı şəxslər aid edilir?_**

Vergi Məcəlləsinin 199.3-cü maddəsində qeyd edilmişdir ki, binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli «Əmək pensiyaları haqqında» Qanununun 4.1-ci maddəsinə əsasən, yaşa görə pensiya, əlilliyə görə pensiya, ailə başçısını itirməyə görə pensiya əmək pensiyalarına aid edilir.

Göstərilənlərə əsasən, Vergi Məcəlləsinin 199.3-cü maddəsində qeyd olunan pensiyaçılara Azərbaycan Respublikasının «Əmək pensiyaları haqqında» Qanunu ilə müəyyən edilmiş pensiyaçılar aid edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya s.musayeva@taxes.gov.az elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ötən il Azərbaycanın Avropa Birliyi ölkələri ilə ticarət dövriyyəsi **9,7 milyard** dollar təşkil edib.
- İndiyədək Azərbaycanda, ümumilikdə, **43** tvinninq layihəsi icra edilib.
- Azərbaycanda **40**-dan çox İsveçrə kapitallı şirkət fəaliyyət göstərir və onlar son 10 ildə Azərbaycan iqtisadiyyatına **550 milyon** ABŞ dolları həcmində investisiya yatırıblar.
- Çin Xalq Respublikasından Azərbaycan Respublikasına son 3 ildə qrant yardımı hesabına **300-ə** yaxın texnika verilib.
- Cari ilin ötən dörd ayı ərzində Azərbaycanda toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində **31,6 milyon** manat dəyərində məhsul istehsal edilib.
- Bu ilin sonunadək Astara çayı üzərində dəmir yolu körpüsünün və Astara stansiyasından sərhədədək **8,3** kilometrlik yolun, İran tərəfində **1,7** kilometrlik xəttin və yükaşırma terminalının tikintisinin yekunlaşdırılması nəzərdə tutulur.
- Dəmir yolu nəqliyyatı ilə 2016-cı ilin yanvar-aprel aylarında **4,6 milyon** ton yük, **581,7 min** sərnişin daşınıb.
- Aprel ayında ölkə üzrə **1,7 milyard** kilovat-saata yaxın elektrik enerjisi istehsal edilib. 2016-cı ilin ötən 4 ayı ərzində isə elektrik enerjisi istehsalı **7,6 milyard** kilovat-saata yaxın olub.

# Dövlətin verdiyi imtiyazlardan sui-istifadə yolverilməzdir

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı ilin birinci rübü ərzində Azərbaycanda 48 min yeni, o cümlədən 42 min daimi iş yerləri yaradılıb, onların da 64,6%-i qeyri-dövlət sektorunun payına düşür. Yeni iş yerlərinin 25%-i Bakı şəhərinin, 1,2%-i Naxçıvan Muxtar Respublikasının, 73,8 %-i regionların payına düşüb. Daimi iş yerlərinin 7,7%-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 30,4%-i mövcud müəssisə və təşkilatlarda, 0,9%-i fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 61%-i isə fərdi sahibkarlıq subyektləri tərəfindən açılıb.

2016-cı ilin yanvar-mart aylarında ölkədə 2045 müəssisə və təşkilat (onların nümayəndəlik və filialları) yaradılıb və onların sayı keçən ilin müvafiq dövrünə nisbətən 19,3 faiz artıb. Müəssisə və təşkilatların 97,2%-i xüsusi mülkiyyətli (onlardan 5,4%-i tam xarici investisiyalı, 1,5%-i birgə mülkiyyətli), 0,2%-i bələdiyyə mülkiyyətli, 2,6%-i dövlət mülkiyyətli müəssisələrin payına düşür. Bu ilin ilk rübündə fərdi sahibkarlıqla məşğul olmaq üçün ölkənin vergi orqanlarında 26437 fiziki şəxs qeydiyyatdan keçib və onların sayı keçən ilin müvafiq dövrünə nisbətən 44,6% artıb. Yeni fəaliyyətə başlayan müəssisələrin böyük bir hissəsi ticarət, tikinti və nəqliyyat sahələrini əhatə edir. Yeni müəssisə və şirkətlərin ümumi payında həmin sahələrin xüsusi çəkisi təxminən 35-40% təşkil edir.

Bütün bunlar göstərir ki, ölkədə yaradılmış əlverişli biznes mühiti iş adamlarının Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrinə investisiya qoyması üçün güvənlidir. Bunu Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna isvestisiya qoymaq istəyən xarici iş adamları haqqında da demək mümkündür. İqtisadiyyatın real sektorunun inkişafı üçün formalaşan bu ab-hava bütövlükdə çox müsbət bir hal kimi dəyərləndirilməlidir.

***Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayı artır***

Sahibkarlıq sektoru üçün yaradılmış əlverişli mühit və həyata keçirilən səmərəli vergi siyasəti Azərbaycanda fəaliyyətə başlayan xarici sərmayəçilərin də sayının artmasına səbəb olmaqdadır. Son 12 ildə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. Həmin şirkətlərin 30%-ə yaxını qardaş Türkiyəyə məxsusdur. Rusiya, Böyük Britaniya, ABŞ və Fransaya məxsus investisiyalı müəssisələrin sayı da kifayət qədərdir. Cənubi Koreya, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətlərinin sayında artım qeydə alınmaqdadır.

Respublikamızda investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırmaqdadır. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərir. 2016-cı ilin yanvar-mart ayları ərzində Azərbaycanda 114 xarici investisiyalı şirkət qeydiyyata alınıb. Həmin şirkətlərin daha çox maraq göstərdikləri sahələr qeyri-neft - sənaye, tikinti, nəqliyyat, ticarət, turizm və xidmət sektorlarıdır.

Bu ilin ilk rübündə Avropa və ABŞ-ın nüfuzlu şirkətləri Azərbaycanda öz nümayəndəliklərini açıb. Onların sırasında Almaniyanın «Sparkassen Advisory Services», Böyük Britaniyanın «General Engineering Services and Supply Company LP», ABŞ-ın «Tera International Group INC», Estoniyanın «SKYBUS», Birləşmiş Ərəb Əmirliklərinin «United Alliance Group LTD», Fransanın «AIRBUS DsGeoSa», Norveçin «EPİ limited» kimi şirkətlərini göstərmək olar.



***Beynəlxalq qurumlar sahibkarlara yaradılan şəraiti təqdir edir***

Azərbaycanda biznes sahəsində yoxlamaların sayının azaldılması və sahibkarlığın inkişafı ilə bağlı aparılan islahatlar beynəlxalq iqtisadi qurumların nümayəndələri tərəfindən də yüksək qiymətləndirilməkdədir. Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı sahibkarlıq sahəsində yoxlamaların sayının azaldılması və lisenziya sisteminin təkmilləşdirilməsi ilə əlaqədar aparılan islahatları təqdir edərək, Azərbaycanda azad biznesin inkişafında mühüm işlər görüldüyünü bildirirlər. Həmin qurumların ölkəmizə səfər edən nümayəndələrinin hökumət üzvləri ilə keçirilən görüşlərində 2016-cı ildən həyata keçirilən yeni islahatların qeyri-neft sektorunun və sahibkarlığın inkişafını stimullaşdırdığı, xarici investisiyaların təşviqi üçün yeni imkanlar yaratdığı vurğulanıb.

***Bəzi iş adamları işçilərin hüquqlarını pozmaqda davam edir***

Hökumət sahibkarların hüquqlarının və mənafelərinin qorunması üçün ən mütərəqqi addımlar atsa da, bir çox hallarda işçilərin əmək hüquqlarının pozanlar da elə sahibkarların özləri olur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidmətinin apardığı araşdırmalara görə, 2015-ci ildə əmək qanunvericiliyinə əməl olunmaması ilə bağlı aşkar edilən hüquq pozuntularının böyük bir hissəsi - 90%-i məhz sahibkarlar tərəfindən olub. Bu cür hallara daha çox özəl sektora aid ticarət və ictimai iaşə, topdansatış, tikinti sektorlarında rast gəlinib. Bəzi sahibkarlar tərəfindən işçilərin əmək haqlarının verilməsində gecikmələr, sosial xarakterli ödənişlərin gizlədilməsi, işdən qanunsuz azad olunma, əmək qanunvericiliyinin tələblərinin pozulması faktları üzrə müvafiq tədbirlər görülməkdədir. Bundan başqa, ticarət, tikinti və digər sahələrdə yaşı 40-50 həddində olan şəxslərin işə götürülməsinə qoyulan qadağalardır. Ölkə Konstitusiyasında və digər qanunvericilik sənədlərində əmək qabiliyyətli insanların 65 yaşa qədər işə qəbulu təsbit olunsa da, özəl şirkətlərin rəhbərləri həmin yaş həddində olan insanları, ümumiyyətlə, işə götürmürlər. Bu isə vətəndaşlar arasında ayrı-seçkiliyin əlaməti olmaqla, onların hüquqlarının pozulması deməkdir.

...Qeyd olunan faktorlar bir daha göstərir ki, Azərbaycanda təmin edilmiş əlverişli biznes mühiti sahibkarların fəaliyyəti və azad rəqabət üçün geniş meydan yaradır. Bu şəraitdən yararlanan, amma dövlətin verdiyi imtiyazlardan sui-istifadə edənlər isə anlamalıdırlar ki, belə hallar heç də nəzarətdən kənarda qalmır: dövlətin öz sərt qanunları var və qanun qarşısında hər kəs eyni cavabdehlik daşıyır.

**Elbrus CƏFƏRLİ**

# Yeni qaydalar sahibkarların işini xeyli asanlaşdıracaq

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən «Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün «Yaşıl dəhliz» və digər buraxılış sistemlərindən istifadə Qaydaları»nın təsdiq edilməsi haqqında fərman imzalanıb. Yeni qaydalar «Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli sərəncamının 3.2-ci bəndinin icrası ilə əlaqədar hazırlanıb və gömrük sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Bu qaydaların məqsədi gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılmasından ibarətdir.

Bu Qaydalarda nəzərdə tutulmuş risk qiymətləndirilməsinin və idxalatçıların risk qrupları üzrə bölgüsünün aparılması, habelə buraxılış sistemlərinin və gömrük nəzarəti tədbirlərinin tətbiqi ilə bağlı bütün proseslər məmur-sahibkar təması olmadan elektron sistem vasitəsilə həyata keçirilir və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirilən xarici ticarət əməliyyatları zamanı risk qrupları üzrə buraxılış sistemlərindən istifadə ilə bağlı, ayda bir dəfədən az olmayaraq, öz rəsmi internet saytında ümumiləşdirilmiş məlumat verir.

Qaydalarda dörd əsas anlayışdan - buraxılış sistemindən istifadə olunur: «Yaşıl dəhliz», «Mavi dəhliz», «Sarı dəhliz» və «Qırmızı dəhliz»:




- «Yaşıl dəhliz» - əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük prosedurına uyğun gömrük ərazisinə buraxılışını nəzərdə tutan buraxılış sistemi;

- «Mavi dəhliz» - əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılışından sonra gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemi;

- «Sarı dəhliz» - əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqəsində keçirilən malların və nəqliyyat vasitələrinin, məlumatların, elektron və ya kağız daşıyıcıda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatların (şəhadətnamələrin), mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən xüsusi icazənin mövcudluğunun və digər hüquq müəyyənedici sənədlərlə müqayisət olunmasının yoxlanmasını və gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemi;

- «Qırmızı dəhliz» - əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük məqsədləri üçün lazım olan məlumatların və sənədlərin, eləcə də malların və nəqliyyat vasitələrinin, habelə tələb olunan hallarda şəxsin yoxlanmasını nəzərdə tutan buraxılış sistemi deməkdir.

«VIP Escort Motors»un baş direktoru Rəşad Quliyev yeni qaydaları ölkədə korrupsiyaya qarşı aparılan mübarizənin davamı kimi qiymətləndirir: «Sahibkarlar bir sıra hallarda gömrük sistemində idxal və ixrac zamanı çətinliklərlə üzləşdiklərini bildirirlər. Xüsusən idxal və ya ixrac zamanı sərhəddə malların və ya avtomobilin sənədləşdirilməsi prosesi xeyli vaxt aparır və bu da ləngimələrə və uzun növbələrə səbəb olur. Yeni Qaydalar qüvvəyə mindikdən sonra isə sahibkar idxal və ya ixrac etdiyi malını öncədən internet vasitəsilə bəyan edəcək və aldığı kod ilə sərhəddən qısa bir zamanda keçid edə biləcək. Həmçinin əgər idxal və ixrac olunan mala hər hansı sertifikat tələb edilirsə, onu da onlayn vasitəsilə sistemə daxil edə biləcək. Bununla da məmur-sahibkar arasında indiyədək mövcud olan birbaşa təmasa son qoyulacaq və nəticədə bu sahədə şəffaflığın təmin olunması ilə bir sıra korrupsiya halları tamamilə aradan qaldırılacaq».

**FƏXRİYYƏ**

# Neftdən asılılıq 50 faizdən aşağıdır

Azərbaycanın iqtisadi siyasətinin təməlində yalnız neft satıb ondan əldə olunan gəlirlərdən bəhrələnmək praktikası dayanmır. Azərbaycan ilk neft pulları daxil olan təxminən 2003-cü ildən başlayaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi və Azərbaycan əhalisinin bütün potensialından ölkə iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində istifadə olunur. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov «ANS» televiziyasına açıqlamasında bildirib ki, 2008-ci ildən dünyada yaşanan maliyyə böhranı, neft qiymətlərinin kəskin şəkildə 3 dəfə aşağı düşməsi Azərbaycanı təxminən 2014-cü ildə yaxaladı. Amma buna qədər hakimiyyət lazımi tədbirləri görmüşdü. Əvvəla, neftdən gələn pullar Azərbaycanda səmərəli şəkildə iqtisadiyyata yatırılmışdı. Baxın, Azərbaycanda bu gün nə qədər sənaye parkları yaradılıb. Zaman var idi ki, Azərbaycan bütün qida məhsullarını xarici ölkələrdən idxal edirdi. İndi özümüz istehsal edirik, Azərbaycan bu müddətdə kənd təsərrüfatına ciddi yatırımlar qoyub».

Azərbaycan Prezidentinin köməkçisinin sözlərinə görə, ölkədə qeyri-neft sektorunun və özəl sahibkarlığın inkişafına ciddi stimul verilib: «Bu gün Azərbaycanın ümumi daxili məhsulunun 80 faizə yaxını özəl sektorun hüsabına formalaşır. Azərbaycanda qeyri-neft sekrotunun payı artıq 50 faizdən yuxarı qaldırılıb, neftdən asılılıq isə 50 faizdən aşağıdır. Azərbaycan neftin qiymətinin birdən-birə aşağı düşməsindən kifayət qədər hazırlıqlı vəziyyətdə çıxa bildi».

Sosial layihələrlə bağlı Əli Həsənov qeyd edib ki, ölkə başçısının yürütdüyü sosial siyasət çərçivəsində 2016-cı il üçün nəzərdə tutulan bütün layihələr icra olunur. İcrası dayandırılan bəzi layihələrin isə gələcəkdə yenidən həyata keçirilməsi bərpa olunacaq.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu il Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycana sərmayə qoyuluşunu xeyli artırmaq niyyətindədir.

Beynəlxalq Valyuta Fondu Azərbaycanda aparılan islahatlara daha böyük dəstək verməyi planlaşdırır.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının təşkilatçılığı ilə iyunun 2-də Bakıda «Sənayenin təkmilləşdirilməsi üçün innovativ texnologiyalar» mövzusunda forum keçiriləcək.

İran İslam Respublikası Azərbaycan hökumətinə dərman və avtomobil istehsalı zavodlarının, tibbi ləvazimatlarla təchiz edilmiş xəstəxananın tikintisi ilə bağlı təkliflər paketi təqdim edib.

Azərbaycan Auditorlar Palatası İsrail və Estoniyanın müvafiq qurumları ilə əməkdaşlıq sazişləri bağlayacaq.

Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası mühasiblər üçün vahid model hazırlayıb.

«Şimal-Cənub» nəqliyyat dəhlizi üzrə işlərin birinci mərhələsi bu ilin sonunadək yekunlaşacaq.

Türkiyə mətbuatında Bakının turizm imkanları ilə bağlı silsilə məqalələr dərc edilib.

# Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi baxımından çox önəmli islahat prosesi gedir

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard Azərbaycan hökuməti tərəfindən biznes mühitinin təkmilləşdirilməsinə dair aparılan islahatları yüksək qiymətləndirib.

Avropalı iş adamlarının bu imkanlardan yararlanacağına əminlik ifadə edilərək bildirilib ki, Aİ ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün mövcud olan əlverişli şərait və potensialı daha da möhkəmləndirmək vacibdir: «Ticarət və iqtisadi sahədə geniş əməkdaşlığımız var. Azərbaycanda çox önəmli islahat prosesi gedir. Bu da iqtisadiyyatın diversifikasiyası baxımından önəmlidir. Konfransın məqsədi institutsional quruculuq fəaliyyətindən dərsləri müzakirə etmək və gələcək fəaliyyəti qurmaqdan ibarətdir. Dövlət qurumlarının tvinniq alətlərinə marağı var».

M.Mard qeyd edib ki, Azərbaycan tvinniq layihələrinin sayına görə, Şərq Tərəfdaşlığı məkanında liderdir: «Layihələrdən 25-i tamamlanıb. İstehlakçıların mühafizəsi, qanunun aliliyi, parlamentə dəstək layihəsində yaxşı nəticələr var. Avropa İttifaqına üzv dövlətlər təcrübəsini Azərbaycana təqdim edir və bölüşür. Texniki yardım informasiya mübadiləsi önəmlidir.

# Kartla əməliyyatların dövriyyəsini iki dəfə artırmaq mümkündür

«MasterCard» beynəlxalq ödəniş sistemi Azərbaycanda regional nümayəndəliyini açmaq niyyətindədir. Təşkilatın baş müşaviri Timoti Mörfi bildirib ki, əməkdaşlığı daha da artırmaq məqsədilə yaxın vaxtlarda «MasterCard»ın Bakıda ofisi fəaliyyətə başlayacaq. Təşkilat Azərbaycan hökuməti tərəfindən elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi ilə əlaqədar hazırladığı yeni strategiyanın həyata keçirilməsi, Mərkəzi Bankla birgə strateji çərçivələrin hazırlanması, qabaqcıl texnologiyaların ölkəmizə gətirilməsi sahəsində iştirak etmək niyyətindədir. Ödəniş şirkəti, həmçinin, kart sisteminin idarə edilməsi və təkmilləşdirilməsi, əhalinin kartlardan istifadəyə marağını artırmaq üçün banklarla birgə stimullaşdırıcı kampaniyalar təşkil edəcək.



T.Mörfi qeyd edib ki, hazırda Azərbaycan banklarının vəziyyəti qənaətbəxş səviyyədə olmadığından, bu sahənin sağlamlaşdırılması əsas tədbirlərdən olmalıdır. Bankların likvidliyi artırılmalı, onların kommersiya təşkilatları və vətəndaşlara fəal xidmət əməliyyatları bərpa olunmalı və bundan sonra daha sərfəli kart məhsulları və xidmətləri təklif etmək məqsədəuyğundur. Şirkətin proqnozlarına görə, 2020-ci ilədək elektron ödənişlərin ümumi ödənişlərdəki payı 20-30%-dən çox olacaq. Dünyada 33 milyondan çox satış nöqtəsi, 2 milyard kart və 150 müxtəlif valyuta ilə həyata keçirilən əməliyyatlar şəbəkəsinə sahib olan «MasterCard» hesab edir ki, Azərbaycanda ödəniş infrastrukturu kifayət qədər genişdir və qarşıdakı 5 ildə kartla aparılan əməliyyatların həcmini 2 dəfə artırmaq mümkündür.

Şirkətin baş müşaviri 2016-cı ilin aprel ayında Mərkəzi Bank tərəfindən ölkədaxili pərakəndə ödənişlərin effektiv emalının təmin edilməsi məqsədilə istifadəyə verilən Banklararası Kart Mərkəzinin əhəmiyyətinə də toxunub və bunun nağdsız hesablaşmaların inkişafı, ödəniş kartları infrastrukturunun daha effektiv fəaliyyət göstərməsində mühüm rol oynayacağına inandığını bildirib. Qeyd edib ki, Azərbaycanda emissiya olunan ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin tam şəkildə ölkə daxilində həyata keçirilməsini təmin edən bu qurumun istismara verilməsi beynəlxalq təcrübədə mövcud olan son nailiyyətlərin tətbiqi deməkdir. Mərkəzin yaradılması ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə hesablaşmalarda effektivliyin daha da artırılması, xidmət haqlarının bazar tələblərinə uyğun qaydada çevik tənzimlənməsinin təşkili, habelə nağdsız hesablaşmaların səmərəliliyinin yüksəldilməsi baxımından çox əhəmiyyətlidir.

«MasterCard» şirkəti kart fırıldaqçılığına qarşı mübarizə sahəsində yeni texnologiyaların tətbiqi sahəsində də ölkəmizlə əməkdaşlıq etməyi planlaşdırır. Kiçik və orta biznes üçün nəzərdə tutulan yeni xidmətlərdən biri olan «Simplify Controls» sadələşdirilmiş tranzaksiyalar idarəetmə sisteminin tətbiqi daha məqsədəuyğun sayılır. Bu xidmət elektron ticarət nümayəndələrinin pulköçürmə əməliyyatlarına real vaxt rejimində nəzarət etməsinə imkan verməklə təhlükəsizliyin qorunmasını təmin edir. Şirkətin apardığı təhlillərə görə, fırıldaqçılıq kiçik biznes üçün ən ciddi təhdidlərdən biridir və elektron ticarət zamanı vətəndaşların 60 faizi bu təhlükə ilə üzləşir. «Simplify Commerce» platforması isə sifarişləri qeydə almaq və potensial təhlükəli sifarişləri ötürmək imkanı sayəsində ən etibarlı təhlükəsizlik sistemi hesab edilir. Bu texnologiyaların köməyi ilə nağdsız əməliyyatların bütün bölmələri üzrə, mobil telefon və kompüter ödənişləri zamanı meydana çıxan mümkün fırıldaqçılıq cəhdləri barədə istifadəçiyə e-bildirişlər göndərilir və aparılan tranzaksiyalar avtomatik dayandırılaraq vətəndaşın elektron pul əməliyyatları dondurulur və ona dəyəcək zərərin qarşısı operativ qaydada alınır.

**ELBRUS**

# Aqrar sığortanın faydaları, bugünkü vəziyyəti və inkişaf perspektivləri

İnsanların iradəsi xaricində olan təbiət hadisələri - sellər, daşqınlar, zəlzələlər və s. bütün dünyada olduğu kimi, Azərbaycandan da yan keçmir. Təbii fəlakətlər respublika iqtisadiyyatına hər il orta hesabla 30-50 milyon ABŞ dolları miqdarında ziyan vurur, ayrı-ayrı ekstremal hadisələr zamanı isə bu rəqəmlər daha böyük məbləğlərlə hesablanır. Elə bu yaxınlarda respublikamızın bir sıra bölgələrində baş verən güclü külək, leysan yağışları nəticəsində meydana gələn sel və daşqının kənd təsərrüfatına külli miqdarda ziyan dəyib. Kür çayının daşması ilə Hacıqabul rayonunda Meyniman kəndi ərazisində bəndin yarılması altı yaşayış məntəqəsində ciddi təhlükə yaradıb. Aşağı Qarabağa və Göyçay rayonuna yağan güclü dolu da yaşayış evlərinə, kənd təsərrüfatına ciddi ziyan vurub. Tərtər rayonu ərazisinə 7-8 dəqiqə ərzində yağan dolu nəticəsində taxıl tarlaları, meyvə bağları, tərəvəz və bostan sahələri dağılıb, evlərin zirzəmilərinə su dolub. Tovuz və Daşkəsən rayonlarında da dolu ilə müşayiət olunan leysan yağışları kəndlərdə ciddi fəsadlar törədib, sakinlərin kartof və tütün sahələrini dağıdıb.

Bu cür hadisələrdən sığortalanmaq üçün kənd təsərrüfatında çalışan fermerlərin aqrar sığortadan yararlanmaları öz aktuallığını bir daha ortaya qoyur. Görünən odur ki, kənd təsərrüfatına dəyən zərərin qarşısını almaq üçün aqrar sığortanın tətbiqinə və bu sahənin inkişafına böyük ehtiyac var. Sığorta üzrə ekspert Hikmət Allahverdinin sözlərinə görə, aqrar sığortanın ölkədə inkişaf etdirilməsi birbaşa və dolayı yolla hər kəsə - dövlətə, fermerə, sığorta şirkətinə və banklara eyni qaydada faydalıdır: «Aqrar sektorun təbiət hadisələrinə qarşı həddindən artıq həssas olması fermerlərin riskini artırır, bunun qarşılığında isə dövlət büdcəsindən fermerlərə yardımlar ayrılır. Bu sahədə sığortanın tətbiqi isə dövlətin vətəndaşlara dəyən zərərlərə görə ödədiyi kompensasiya ödənişlərinin məbləğinin xeyli aşağı düşməsinə gətirib çıxaracaq. Təbii hadisələr nəticəsində təsərrüfatına dəymiş zərərin qarşılanması üçün sığortalanmış fermerin ilk «döyəcəyi qapı» məhz sığorta şirkəti olacaq.

Bildiyiniz kimi, banklar kredit qarşılığında fermerlərdən əmlakını girov qoymağı tələb edirlər. Bu zaman əmlakın paytaxtda olması tələbi isə fermer üçün xüsusilə çətinlik yaradır və onun kredit almaq şansını xeyli azaldır. Kənd təsərrüfatı sığortasının tətbiqi zamanı bu problem ortadan qalxa bilər. Hər hansı sığorta hadisəsi zamanı məhsulunu itirən fermer, eyni zamanda, banka təminat olaraq girov qoyduğu əmlakını da itirə bilər, sığortadan yararlanan fermerin isə belə təhlükələrlə qarşılaşması mümkün deyil. Aqrar sığortanın tətbiqi sığorta şirkətlərinə və banklara da sərf edir: onlar bu yolla yeni müştərilər əldə etmək imkanı qazanacaqlar».

Ekspert aqrar sığortanın perspektivlərindən bəhs edərək bildirdi ki, bu növ sığortanın tətbiqi kənd təsərrüfatı ilə məşğul olan əhalinin sayının çoxalması, bu sahədə məhsuldarlığın, aqrar sektorda əsas kapitala yönəldilmiş investisiyaların həcminin artması, aqrar sektorda dövlət tərəfindən tarazlı regional inkişaf tədbirləri, sosial rifahın yüksəlməsi, gəlirlərin ədalətli bölgüsü, ərzaq təhlükəsizliyi və s. baxımından böyük önəm daşıyır. Yeni yaradılmış Maliyyə Bazarlarına Nəzarət Palatasının kənd təsərrüfatı sığortalarının inkişafında maraqlı olmaları, bu yöndə atılan addımlar sahənin inkişafına ümidləri xeyli artırır.

**Təbii hadisələr nəticəsində təsərrüfatına dəymiş zərərin qarşılanması üçün sığortalanmış fermerin ilk «döyəcəyi qapı» məhz sığorta şirkəti olacaq**

**F.İKRAMQIZI**

# Azərbaycan xarici investorların maraq dairəsindədir

Son illər həyata keçirilən sosial-iqtisadi siyasət Azərbaycanda makroiqtisadi sabitliyə, əlverişli biznes və investisiya mühiti şəraitinin yaradılmasına səbəb olub. Sahibkarlıq sektorunda islahatların həyata keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, eləcə də yerli və xarici investisiyaların, müasir texnologiyaların ölkəyə cəlb edilməsi istiqamətində xeyli işlər görülüb. Sahibkarların hüquqlarının müdafiəsi, onların fəaliyyətinə mane olan müdaxilələrin qarşısının alınması, bu sahədə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayının azaldılması ilə bağlı ciddi addımlar atılıb. Təbii ki, bütün bunlar yerli və xarici investorların, eləcə də ölkəmizlə əməkdaşlıqda maraqlı olan beynəlxalq iqtisadi qurumların azad rəqabət mühitində fəaliyyət göstərməsini, ayrı-ayrı sektorlara əminliklə sərmayə yatırmalarını stimullaşdırır, investisiyaların həcmini gündən-günə artırır.

Bu günlərdə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Çakrabati Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində yaradılan azad ticarət zonasına qurum tərəfindən investisiya yatırmaq imkanlarına baxılacağını bildirib. O, Azərbaycanla tərəfdaşlığının yüksək səviyyədə olduğunu və son iki ildə AYİB tərəfindən ölkəmizdə 270 milyon ABŞ dolları dəyərində 30 layihə reallaşdırıldığını qeyd edib.

Bakı Biznes Mərkəzində isə Qətər Dövlət İnvestisiya Qurumunun Biznesin inkişafı idarəsinin rəisi Şeyx Əbdüləziz Ali Əl-Taninin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bakıda Azərbaycan-Qətər işgüzar görüşü keçirilib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycan Respublikası ilə Qətər Əmirliyi arasında siyasi-iqtisadi əlaqələrin inkişaf etdiyini, qarşılıqlı rəsmi səfərlərin əməkdaşlığın genişlənməsində mühüm əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Qətər arasında hökumətlərarası komissiya və parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir, birgə biznes forumları, işgüzar görüşlər təşkil olunur. Bununla belə, iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar var. N.Səfərov Qətər nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində təşkil edilmiş işgüzar görüşün əməkdaşlığın inkişafına, iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə töhfə verəcəyini bildirib.

Xarici investisiyalar üçün münbit şərait, investorlar üçün hüquqi təminatlar, qeyri-neft sektorunda geniş imkanlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştləri, beynəlxalq ticarət təşəbbüslərində iştirak, mülkiyyət toxunulmazlığı və bu kimi digər müsbət amillər ölkə iqtisadiyyatına yatırılan xarici sərmayələrin həcminin bundan sonra daha da artıracağına geniş perspektivlər vəd edir.

**FƏXRİYYƏ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Uçotda yeni hesablar planının ən işlək hesablarından istifadə edilməsi

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli qərarı ilə «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası», həmçinin Kollegiyanın Q-03 nömrəli 03 fevral 2016-cı il tarixli qərarı ilə yeni «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» təsdiq edilmişdir. Hər iki Qayda köhnə (ənənəvi) hesablar planının tətbiqini praktik olaraq ləğv edir. Lakin müəssisələrin əksəriyyətində hələ də ikirəqəmli hesablar planından istifadə olunması prosesi davam edir. Burada çətinlik yarada biləcək əsas məqam köhnə hesablar planına praktik vərdiş edən mühasiblərin yeni üçrəqəmli hesablar planından istifadəyə keçməsi ola bilər.

Yeni hesablar planında 150-yə yaxın hesab tövsiyə olunub və bunlara əlavələr də edilə bilər. Sual yaranır ki, mühasiblər bütün bu hesabları əzbərləməyə məcburdurlarmı? Bəzi mühasiblər bütün hesabların nömrələrini və adlarını tam əzbərləməyincə uçotu apara bilməyəcəklərini düşünə bilərlər. Lakin bundan çıxış yolu vardır. Hazırda fəaliyyət göstərən müəssisələrin böyük əksəriyyəti kiçik və orta sahibkarlıq subyektləridir və onların da çoxu vergi ödəyicisi kimi sadələşdirilmiş vergi sistemini tətbiq edirlər. Əksəriyyət təşkil edən belə müəssisələrin uçotunun aparılmasında çox az (məhdud) sayda mühasibat hesablarından istifadə etmək olar. Bu zaman daha vacib hesablardan istifadə etməklə həm mühasibat üzrə sintetik uçotu aparmaq olar, həm də bu uçot məlumatları ilə müvafiq vergi bəyannamələrinin aktivlər, kapital və öhdəliklər barədə məlumatları əks etdirən Əlavəsini tərtib etmək olar.

Məsələn, ticarət, ictimai-iaşə, digər xidmət sahələrində fəaliyyət göstərən və məhsul istehsalı ilə məşğul olan müəssisələrdə (sadələşdirilmiş və ya ƏDV ödəyicisi olan), həmçinin fərdi sahibkarlar tərəfindən yeni hesablar planının aşağıda göstərilən minimum sayda hesablarından istifadə etməklə (sub-hesablarsız) mühasibat uçotunu aparmaq və maliyyə hesabatlarını hazırlamaq olar.

Cədvəldə göstərilən cəmi 28 yeni üçrəqəmli hesabdan istifadə etməklə müəssisənin mühasibat uçotunu qurmaq olar. Tövsiyə olunan bu «mini» cədvəli tərtib edərkən uzunmüddətli aktivlər və bununla əlaqədar hesablar nəzərdə tutulmayıb. Çünki bu hesablarda uçota alınmalı əməliyyatlar indiki biznes şəraitində çox nadir hallarda baş verir. Həmçinin, cədvəldə eyni xarakterli əməliyyatların bir hesabda uçotunun aparılması nəzərdə tutulub. Məsələn, qısamüddətli debitor borclara aid 211 - 218 hesablarda uçota alınan əməliyyatların hamısı baş versə də, həmin eyni xarakterli əməliyyatları təkcə 211 hesabda uçota almaq olar. Bunu ciddi səhv kimi qəbul etmək lazım deyil, çünki belə uçotaalma şərti və müvəqqətidir. Tutaq ki, müəssisənin həm mal satışından, əmlakın icarəyə verilməsindən, həm də tikinti-təmir işlərinin görülməsindən gəliri olmuşdur və bu 3 istiqamətdə gəlirlərin subyekti olan müştərilərin hər biri ilə hesablaşmaların uçotunun aparılması üçün yeni hesablar planında ayrıca hesab (211, 214, 215) nəzərdə tutulmasına baxmayaraq, bir hesabda, yəni bu əməliyyatları 211 №-li hesabda uçota almaqla kifayətlənmək olar.

Təbii ki, müəssisənin fəaliyyəti zamanı çox az hallarda baş verən (intensiv olmayan) əməliyyatlar mövcud ola bilər. Məsələn, mənfəətdən dividendlərin verilməsi, bank kreditlərinin alınması, törəmə müəssisələrə investisiyaların qoyulması kimi əməliyyatları buna aid etmək olar. Belə əməliyyatlar baş verdikdə tövsiyyə olunan cədvələ əlavə hesablar artırmaq olar. Ümumiyyətlə, müəssisənin mühasibat uçotunda sintetik uçot aparılarkən, hesablar planındakı minimum sayda hesablardan istifadəyə səy göstərilməsi və ən vacibi, işçi hesabların aydınlaşdırılması məsləhətdir.

Hörmətli oxucular, bu «mini» cədvəlin tövsiyə olunmasında məqsəd yeni üçrəqəmli hesablar planından istifadəyə operativ başlamanı (keçidi) təmin etmək və ilkin mərhələdə mühasiblərdə yarana biləcək «yoruculuğu» aradan qaldırmaqdır. Lakin müəyyən müddət keçdikdən və mühasiblərin bu sahədə peşəkarlığı artırıldıqdan sonra yeni hesablar planından bütövlükdə istifadəni təmin etmək lazımdır.

**İstifadəsi tövsiyə olunan əsas hesablar**

| Maliyyə məlumatı | Hesab №-si | Hesabın adı |
|---|---|---|
| Aktivlər | 111 | Torpaq, tikili və avadanlıqlar - ilkin dəyər |
| | 112 | Torpaq, tikili və avadanlıqlar - amortizasiya |
| | 201 | Xammal və materiallar |
| | 202 | İstehsal (xidmət, iş) məsrəfləri |
| | 204 | Hazır məhsul |
| | 205 | Mallar |
| | 211 | Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları |
| | 221 | Kassa |
| | 222 | Bank - milli valyuta ilə cari hesab |
| | 224 | Bank - xarici valyuta ilə cari hesab |
| | 241 | Əvəzləşdirilən ƏDV |
| | 243 | Verilmiş qısamüddətli avanslar |
| | 244 | Təhtəlhesab məbləğlər |
| Kapital | 301 | Nominal (nizamnamə) kapital |
| | 341 | Hesabat dövrünün xalis mənfəəti (zərəri) |
| | 343 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) |
| Öhdəliklər | 501 | Qısamüddətli bank kreditləri |
| | 504 | Qısamüddətli borclar |
| | 521 | Vergi öhdəlikləri |
| | 522 | Sosial sığorta və təminatlar üzrə öhdəliklər |
| | 531 | Malsatan və podratçılara qısamüddətli kreditor borcları |
| | 533 | Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borcları |
| | 543 | Alınmış qısamüddətli avanslar |
| Gəlir və Xərclər | 601 | Satış (göstərilən xidmət, görülən iş) |
| | 611 | Sair əməliyyat gəlirləri |
| | 701 | Satışın maya dəyəri |
| | 731 | Sair əməliyyat xərcləri |
| | 801 | Ümumi mənfəət (zərər) |

# Strateji valyuta ehtiyatları zəruri həcmdə qorunub

## Mərkəzi Bankın «Pul siyasəti» icmalının 2016-cı il üçün ilk buraxılışı çapdan çıxıb

İcmalda qlobal iqtisadi mühit və xarici sektor, ölkədə makroiqtisadi proseslər, pul və məzənnə siyasəti barədə məlumatlar yer almışdır. Qeyd edilmişdir ki, dünya iqtisadiyyatında və əsas ticarət tərəfdaşlarında iqtisadi artımın zəif olması, dünya enerji bazarlarında təklifin tələbi üstələməsi 2016-cı ilin I rübündə Azərbaycanın da xarici valyuta daxilolmalarına öz təsirini göstərmişdir. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən, 2016-cı ilin I rübündə xarici ticarət dövriyyəsi 3.6 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bunun da 1.78 mlrd. dolları ixracın, 1.83 mlrd. dolları isə idxalın payına düşmüşdür. Dövr ərzində 140 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ticarət dövriyyəsinin 42%-i Avropa İttifaqı (Aİ) ölkələrinin payına düşmüşdür. Aİ ilə ticarət əlaqələrinin 30%-i İtaliya, 16%-i Almaniya, 15%-i Fransa, 9%-i isə Çexiya ilə həyata keçirilmişdir. Ümumi ticarət dövriyyəsində MDB ölkələrinin xüsusi çəkisi 12% olmuşdur, bunun da 60%-i Rusiya, 10%-i Ukraynanın payına düşmüşdür.

Hesabat dövründə ölkədə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala investisiya axınları davam etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2016-cı ilin I rübündə 2 mlrd. manat ekvivalentində olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların 68,7%-ni təşkil edir. Əsas kapitala yönəldilmiş xarici investisiyaların artım tempi 35% təşkil etmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Yaponiya, Malaziya, İran və İsveç sərmayədarlarına məxsus olmuşdur. Hesabat dövründə ölkənin strateji valyuta ehtiyatları zəruri həcmdə qorunmuşdur. 2016-cı ilin I rübünün sonuna strateji valyuta ehtiyatları 25 aylıq mal və xidmət idxalına kifayət etmiş və xarici dövlət borcunu 5 dəfə üstələmişdir.

... nayesi, 3%-i kənd təsərrüfatında fəaliyyət göstərmişdir. Xidmət sahələrində isə muzdla işləyənlərin 78,7%-i cəmlənmişdir.

2016-cı ilin birinci rübündə inflyasiya əsasən xərc amillərindən təsirlənmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2016-cı ilin birinci rübündə orta illik inflyasiya 10,8% təşkil etmişdir. İstehlak qiymətləri indeksinin komponentləri olan ərzaq qiymətləri orta illik 13,1%, qeyri-ərzaq qiymətləri 15,2%, xidmətlərin dəyəri isə 4% dəyişmişdir.

Rüb ərzində 561 adda mal və xidmətdən 10-nun qiyməti azalmışdır, 10 ərzaq, 3 qeyri- ərzaq və 52 xidmət olmaqla 65 adda mal və xidmətlərin illik qiyməti isə dəyişməz qalmışdır. 2016-cı ilin birinci rübündə nominal effektiv məzənnə, inflyasiya gözləntiləri qiymətlərə artırıcı, pul bazası, dünya əmtəə qiymətlərinin dəyişimi, ticarət tərəfdaşlarında inflyasiya, müvafiq mal qrupları üzrə qiymətlərin dövlət tənzimlənməsi və ƏDV-dən azadolmalar isə azaldıcı təsir göstərmişdir.

2016-cı ilin I rübündə pul siyasətinə dair qərarların qəbulu zamanı makroiqtisadi sabitliyin təmin olunması hədəfləri və pul-maliyyə bazarlarındakı yeni meyillər nəzərə alınmışdır. Dövr ərzində Mərkəzi Bankın bank sistemi ilə likvidliyin verilməsi və absorbsiyası əməliyyatları faiz dəhlizinin parametrləri çərçivəsində aparılmışdır. I rüb ərzində faiz dəhlizinin parametrlərində 2 dəfə dəyişiklik edilmişdir. Pul bazarında formalaşmış konyunktura uyğun olaraq pul siyasəti alətlərinin təkmilləşdirilməsinə şərait yaratmaq üçün Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi mərhələlərlə 3%-dən 7%-ə, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı həddi 0,1%-dən 2%-ə, yuxarı həddi isə 5%-dən 17%-ə yüksəldilmişdir. Faiz dəhlizinə dair qərar qəbul edilərkən dövlət qiymətli kağızlarının gəlirliyi də nəzərə alınmışdır. Rüb ərzində eyni zamanda faiz dəhlizinin aşağı və yuxarı hədləri səviyyəsində olan faiz dərəcələri ilə likvid... alətləri) öz təşəbbüsləri ilə məhdudiyyətsiz olaraq istifadə edə bilər. Bu qərarlar həm də başlıca makroiqtisadi göstəricilərin proqnozuna və orta müddətli dövrdə dayanıqlı qiymət sabitliyinə nail olunması məqsədinə əsaslanmaqla qəbul edilmişdir. Hesabat dövründə pul kütləsinin həcminin və bank sistemində likvidlik səviyyəsinin tənzimlənməsi məqsədilə məcburi ehtiyat normalarından da istifadə olunmuşdur. Dollarlaşma səviyyəsinin azaldılması, habelə bank sektorunda maliyyə sabitliyinin gücləndirilməsi məqsədilə Mərkəzi Bank İdarə Heyətinin 03 mart 2016-cı il tarixli qərarı ilə banklar tərəfindən xarici valyutada cəlb edilmiş öhdəliklər üzrə məcburi ehtiyat norması 0,5%-dən 1%-ə yüksəldilmiş, qeyri-rezident maliyyə sektoru qarşısında öhdəliklər və beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə məcburi ehtiyat norması isə 0,5%-dən 0%-ə endirilmişdir. Milli valyutada, həmçinin qiymətli metallarda cəlb edilmiş öhdəliklər üzrə isə məcburi ehtiyat norması dəyişməz saxlanılmışdır.

2016-cı ilin I rübündə manatla pul təklifinin dinamikası ötən illərin müvafiq dövründə olduğu kimi, əsasən mövsümi amillərin təsiri altında formalaşmışdır. Dövr ərzində dollarlaşmanın səngiməsi də pul kütləsinin dinamikasına və strukturuna təsir göstərmişdir. Hesabat dövründə manatla pul bazası 5,3% azalaraq rübün sonuna 6535.8 mln. manat təşkil etmişdir. Pul bazasının azalmasına xalis xarici aktivlərin 9,2% azalması səbəb olmuşdur. Xalis daxili aktivlər isə rüb ərzində 889.2 mln. manat (23,2%) artmışdır.

Rüb ərzində manatla geniş pul kütləsi (M2) 3,1% artaraq dövrün sonuna 8943 mln. manat təşkil etmişdir. Bu strukturda nağd pul və fiziki şəxslərin əmanətləri artmış, hüquqi şəxslərin depozitləri isə azalmışdır. Nağd pul kütləsi dövr ərzində 5,4% artmışdır. Rüb ərzində manat depozitləri fiziki şəxslər üzrə 6,4% artmış, hüquqi şəxslərin manat depozitləri isə 3,4% azalmışdır.

**Ticarət dövriyyəsində əsas ölkələr**
*2016-cı il birinci rüb*




**Orta illik inflyasiya**
*faizlə*




İcmalda bildirilir ki, ilin əvvəli ilə müqayisədə hesabat dövrünün sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 0,3% artaraq 4929.7 min nəfər olmuş, onun 95%-ni iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 21,3%-i məhsul istehsalı sahələrində, o cümlədən 6,3%-i tikinti, 6,1%-i emal sə...

... liyin verilməsi və cəlb olunması əməliyyatlarının müddətinin 1 gündən 7 günədək uzadılmasına qərar verilmişdir. Banklar qısamüddətli likvidliyin idarə olunması məqsədilə Mərkəzi Bankın çərçivə aləti olan 1-7 günlük repo/əks-repo əməliyyatlarından (vəsaitlərin yerləşdirilməsi/vəsaitlərin cəlb olunması məqsədilə istifadə olunan pul siyasəti ...

Manatla depozitlərin müddət strukturunda da rüb ərzində dəyişiklik baş vermişdir. Manatla müddətli depozitlər rüblük 6% artmış, tələb olunanadək depozitlər isə 4,8% azalmışdır. Hesabat dövrü ərzində geniş pul kütləsi (M3) 3,1% azalaraq 20635.1 mln. manat təşkil etmişdir.

*İcmalın materialları əsasında hazırladı:* **A.NƏBİYEVA**

## vergi taqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| **20** | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**
20 iyun - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram



# İtaliyalılar Avropa İttifaqından çıxmaq istəyirlər

Ölkədə aparılmış ictimai sorğunun nəticələrinə görə, vətəndaşların təxminən yarısı Avropa İttifaqından çıxmağın tərəfdarıdır və bunun səbəblərindən biri kimi son vaxtlar vergilərin artırılması göstərilir. İtaliya Aİ üzvü olan 28 ölkə arasında bu birliyə şübhə ilə yanaşan ən böyük dövlətdir. 2010-cu ildə aparılmış analoji sorğunun nəticələrinə görə, İtaliya vətəndaşlarının 73 faizi Aİ üzvlüyü lehinə səs vermişdi.

Bəs altı ildə dəyişən nədir? Roma Universitetinin professoru Rafael Marçettinin sözlərinə görə, son sorğu göstərir ki, Avropa İttifaqına şübhə ilə baxan partiyaların səsləri 47 faizə çatmışdır. 2008-ci ilin maliyyə böhranından sonra Aİ-yə üzv ölkələrin hamısında bu tendensiya müşahidə olunur. Rifah və inkişaf dövründə Avropa İttifaqı ticarət münasibətlərini yaxşılaşdıran, iqtisadi sabitlik yaradan müsbət bir qüvvə kimi qəbul edilirdi. Böhran yarandıqda isə onu iş yerləri üçün həddən artıq rəqabət yaratmaqdan tutmuş müxtəlif vergilərin dərəcələrini artırmağa qədər bütün xəstəliklərin baiskarı elan etdilər. Ölkədəki iqtisadi problemlərin günahkarını axtaran siyasətçilər üçün Avropa İttifaqı əlverişli hədəfə çevrilmişdir. Bu oyunda İtaliya daha çox uduzur, çünki ölkənin Brüsselə ödədiyi vəsait aldığından 4,3 milyard avro azdır.

İqtisadiyyatdan başqa, digər amillər də mövcuddur. İtaliyaya dəniz yolu ilə gələn immiqrantların sayı 2013-cü ildə 42 min olduğu halda, 2014-cü ildə bu rəqəm 170 min, 2015-ci ildə isə 150 min olmuşdur. İtaliya hökuməti Avropa İttifaqını bu problemin ümumi həlli üçün strategiya işləyib hazırlamağa çağırmışdır. Çoxlu sayda sammit və konfransların keçirilməsinə baxmayaraq, Aİ bu istiqamətdə hələ də konkret addım atmamışdır. Professor Marçetti qeyd etmişdir ki, Avropa İttifaqının miqrasiya böhranını həll etmək üçün müvafiq yol təklif etməməsi italiyalıların ona etimadını sarsıtmışdır.

# San-Fransisko sakinləri yeni vergi ödəyəcəklər

Üzümüzə gələn ayın əvvəllərində ABŞ-ın San-Fransisko ştatının əhalisi iqlim dəyişmələrinin nəticələri ilə mübarizəyə yönəldilmiş yeni verginin tətbiqinə səs verməli olacaqlar. Ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən bir sıra qurumlar bu ideyanı dəstəkləsələr də, əleyhdarları yeni verginin əhalinin kasıb təbəqəsinə qarşı ədalətsiz olduğunu vurğulayırlar. Yeni verginin hər bir daşınmaz əmlak üçün ildə 12 dollar olacağı gözlənilir. Həmin vergidən əldə olunan vəsait (qarşıdakı 20 il ərzində yarım milyard dollar toplanılacağı gözlənilir) dənizdə suyun səviyyəsinin qalxması nəticəsində mümkün daşqınların nəticələrini azaldan təpəciklərin bərpa edilməsinə xərclənəcək. Hazırda ABŞ-ın varlı vətəndaşlarının elitar əmlaklarının yerləşdiyi sahil əraziləri təbii fəlakət təhlükəsi altındadır.

Yeni verginin tətbiqi ilə bağlı səsvermə iyunun 7-də olacaq. Yeni verginin tətbiqi üçün bütün səslərin üçdə ikisini toplamaq tələb olunur.

# Belarusda vergi məsləhətçiləri fəaliyyətə başlayacaqlar

Vergilər və Yığımlar Nazirliyi vergi məsləhətçiləri barədə layihəni ictimaiyyətin müzakirəsinə vermişdir. Bu sənədin qəbul olunması ilə ölkədə yeni bir vergi məsləhətçisi ixtisası yaranacaq. Vergi məsləhətçilərinə həm biznes nümayəndələri, həm də fiziki şəxslər müraciət edə biləcəklər. Hazırda Belarusda məsləhət, bəyannamələrin tərtibi, mühasibat uçotunun bərpası və aparılması, vergi bəyannamələrinin yoxlanılması «sair xidmətlər» siyahısına daxildir və bunları auditor təşkilatları həyata keçirir. Onlara, adətən, iri və orta müəssisələr müraciət edirlər. «Vergi orqanları ilə əlaqələri sistemli xarakter daşımayan, əsas etibarilə birdəfəlik gəlirlər barədə bəyannamə verən və ya birdəfəlik vergi ödəyən fiziki şəxslər vergitutma qaydaları barədə ətraflı məlumata malik deyillər. Buna görə də onlar vergi hesabatlarının hazırlanmasında tez-tez səhvlərə yol verirlər», - Vergi və Yığımlar Nazirliyinin mətbuat xidmətindən bildirilmişdir. Qeyd edilmişdir ki, beynəlxalq təcrübədə auditorlar və vergi məsləhətçiləri ayrı-ayrı iqtisadi fəaliyyət sahələridir. Vergi məsləhətçilərinin peşəkar məsuliyyəti sığortalanır və onlar öz funksiyalarını yerinə yetirərkən buraxdıqları səhvlərə görə məsuliyyət daşıyırlar.

Nazirlik Almaniyanın və Rusiyanın təcrübəsini misal kimi göstərmişdir. Almaniyada vergi məsləhətçiləri 1961-ci ildən fəaliyyətə başlamışlar və hazırda ölkədə 80 minə yaxın vergi məsləhətçisi var. Rusiyada isə Vergi Məsləhətçiləri Palatası 2002-ci ildə yaradılmışdır və hazırda 6 mindən artıq əməkdaşı əhatə edir. Belarus Respublikasında hazırlanmış layihədə vergi məsləhətçilərinin fəaliyyəti peşəkar birlik - Vergi Məsləhətçiləri Palatası tərəfindən tənzimlənəcəyi nəzərdə tutulur.

Vergi məsləhətçisi olmaq üçün imtahan vermək lazım gələcək. İmtahana bu sahədə müvafiq təhsili və iş təcrübəsi olan mütəxəssislər buraxılacaqlar. Layihədə dövlət qulluğunda çalışan insanların məsləhətçi kimi fəaliyyət göstərməsinə icazə verilmir. Bundan əlavə, müştərilərin riskləri sığortalanacaq - məsləhətçilər öz fəaliyyətləri ilə vurduqları ziyanı özləri ödəyəcəklər. Nəzərdə tutulduğuna görə, onlar öz məsuliyyətlərini sığortalamadan fəaliyyət göstərə bilməyəcəklər. Hələlik vergi məsləhətçilərinin göstərdikləri xidmətin qiyməti layihədə qeyd olunmamışdır. Layihəyə aid təkliflər iyunun 7-dək qəbul ediləcək.



# «Google» şirkətinin ofisində axtarış aparılıb

Şirkətin vergidən yayınma ehtimalı əsasında istintaqa cəlb olunması çərçivəsində müstəntiqlər «Google»nin yerli ofisində axtarış həyata keçirmişlər. Bir müddət bundan əvvəl Fransa mediasında ölkənin fiskal orqanlarına istinadla məlumat yayılmışdı ki, «Google» şirkətinin bu ölkənin vergi orqanlarına borcu təxminən 1.6 milyard avro təşkil edir. Fransa Maliyyə Nazirliyinə yaxın mənbədən bildirilmişdir ki, səhər saat 5-dən 100-dən artıq vergi xidməti əməkdaşı və ciddi maliyyə pozuntularının araşdırılması sahəsində ixtisaslaşmış briqada nümayəndələri şirkətin ofisində axtarışlara başlamışlar. Hüquq-mühafizə orqanlarının nümayəndələri də «Google»nin Parisdəki baş qərargahına gəlmişlər. «Google» şirkəti isə ictimaiyyətə müraciət yayaraq bildirmişdir ki, ölkə qanunvericiliyə tam riayət edir və bütün suallara cavab verməyə hazırdır.

Xatırladaq ki, «Google» bu ilin fevral ayında Böyük Britaniyanın vergi orqanlarına 190 milyon dollar vergi borcu ödəmişdi. Fransa, İngiltərə və digər ölkələr uzun müddətdir ki, öz ərazilərində fəaliyyət göstərən böyük internet şirkətlərinin kiçik məbləğdə vergi ödəmələrindən narahatdırlar və bununla bağlı vaxtaşırı bəyanatlar verirlər.

# Kenya milyardlarla neft vergisini itirə bilər

«Oxfam» agentliyinin ekspertlərinin rəyinə görə, Keniya hökuməti neft çıxarılmasına görə tutulan vergidən milyardlarla şillinq məbləğdən əlini üzmək riski ilə üzləşmişdir. Məlum olmuşdur ki, bu ölkədə neft yataqlarının işlənilməsi və neftin çıxarılması üçün lisenziya almış iri beynəlxalq şirkətlərin 85 faizi müstəsna hüquqlardan istifadə edirlər. Agentlik hökumətə müraciət edərək vergilərin tutulması və vergi ödəməkdən kütləvi yayınmaya qarşı əlavə təsirli tədbirlər görməyi xahiş etmişdir. Əslində, bu ölkədə fəaliyyət göstərən şirkətlərdən yalnız beşi öz korporativ strukturları çərçivəsində offşor hüquqlarından istifadə etmir. Ekspertlər qeyd etmişlər ki, Keniyadakı neft yataqlarında çalışan beynəlxalq şirkətlərin böyük əksəriyyətinin əsl sahiblərini müəyyənləşdirmək çox çətindir. Neftçıxarma sahəsinə dövlətin qeyri-effektiv nəzarət etdiyini nəzərə alsaq, bu fakt xüsusi təhlükə yaradır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Rusiya Federasiyasının paytaxtı; 2.Kimyəvi element; 3.Meksikada bələdiyyə; 4.Qabaqcadan hazırlanmış suallara cavab almaq üçün sorğu vərəqəsi; 5.Fiqurlu konkisürmədə ən sadə tullanma; 6.Döyüş əməliyyatlarının aparılması və yerdəyişmə üçün minik atlarından istifadə edilən qoşun növü; 9.Kişi adı; 13.İtaliya bəstəkarı Cüzeppe Verdinin populyar opera əsəri; 15.Tərcümədə «ağ dağ» mənasını verən kristal massiv - Alp dağ sisteminə daxil olan Qərbi Alp dağlarında yerləşir; 16.Şərqdə ilk opera («Gəlin qayası») yazan bəstəkar qadın. Azərbaycanın xalq artisti, populyar mahnı və romansların, operetta və pyeslərin müəllifinin adı; 17.Hollivud ulduzu, ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatorunun adı; 18.Qədim Misir mifologiyasına görə qoruyucu tanrı (başı insan, bədəni şir); 20.Açıq, aşkar, gözlə görünən, göz qabağında olan; 21.Sibir və Kazan xanı (1496-1497).

**Soldan sağa:** 1.Dağıstan Respublikasının paytaxtı; 5.Rusiya Federasiyasının Perm vilayəti ərazisində çay; 7.Yunanıstanın ikinci böyük şəhəri; 8.Yanma zamanı çıxan od; 10.Rusiya Federasiyasının Sverdlovsk vilayəti ərazisində çay; 11.Abşeron ərazisində yerləşən, bütün Şərqdə nadir gözəlliyi ilə diqqəti cəlb edən, yaşı bir əsrdən çox olan məscid; 12.Türk mifologiyasında od tanrısı (xan); 14.Moskvanın mərkəzində tarixi komleks; 19.Kişi adı; 21.Yazıçı, nasir, tərcüməçi, geologiya-mineralogiya elmləri namizədi (1942), dosent, əməkdar mədəniyyət xadimi. «Fırtına», «Zirvələrdə», «Dalğalar qoynunda» və s. əsərlərin müəllifinin adı; 22.Azərbaycanla qonşu dövlət; 23.Kəskin boğucu iyi olan dezinfeksiya maddəsi; 24.Qohumluq dərəcəsi; 25.Egey dənizin cənub-şərqində, Yunanıstana məxsus arxipelaq. Tərcümədə lon iki ada» mənasını verir.



*Abşeron ərazisində yerləşən məscid*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Pomada; 2.Akronim; 3.Tabor; 4.Karate; 5.Barri (Uayt); 6.Şəfiqə *(Məmmədova)*; 9.Sent; 13.Qrad; 15.Kvintet; 16.Ksenon; 17.Somali; 18.Fikrət *(Əmirov)*; 20.Pafos; 21.Anqar. **Soldan sağa:** 1.Praktikum; 5.Beş; 7.Marlboro; 8.Qraf; 10.Dönər; 11.Treninq; 12.Omeqa; 14.Etika; 19.Soprano; 21.Alibi; 22.Neft; 23.Qanqster; 24.Nis; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 10000

## idman

# «Synergy Baku»nun təmsilçisi «Horizon Park» yürüşünü 3-cü başa vurub




Ukraynanın paytaxtı Kiyevdə «Horizon Park» yürüşləri çərçivəsində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı yarışlar silsiləsi keçirilib. Azərbaycanın «Synergy Baku» kontinental komandasının iştirak etdiyi bu yürüşlərin ilk günü təmsilçilərimiz üçün uğurlu olub.

«Sülh naminə Horizon Park yürüşü» adlanan ilk yarış günündə 25 komandanın tərkibində yer alan 150 iştirakçı 16 km-lik dairəvi marşrut boyunca 10 dövrə vurublar. Yarışın ilk dövrəsindən etibarən liderlər qrupunda qərarlaşan velosipedçimiz Samir Cəbrayılov qarşıya qoyulan taktikanın öhdəsindən mərahətlə gəlib və Ukraynanın «Kolss» komandasının üzvü Vitaliy Butsdan 8, Polşanın «Wibatech Fuji» klubunun təmsilçisi Yaçek Mojarkodan isə 5 saniyə geri qalmaqla finiş xəttini 3-cü keçib.

Məlumat üçün onu da bildirək ki, start xəttinə çıxan 150 velosipedçidən yalnız 66-sı yürüşü başa vura bilib ki, onların da içərisində «Synergy Baku»nun digər üzvləri Elçin Əsədov, Aleksandr Surutkoviç, Ənvər Asanov, İsmayıl İlyasov və Elgün Əlizadə də olub. Yarış proqramına əsasən, mayın 28-də iştirakçılar Kiyevin mərkəzi küçələri ilə 1.2 kateqoriyalı «Horizon Park Race Maidan» yürüşündə mübarizə aparıblar.

Yarışın sonuncu günü «Horizon Park Classic» yürüşündə yığma komandamızın üzvlərindən ən yaxşı nəticəni Aleksandr Surutkoviç göstərib, 8-ci yer.

# Yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan birinciliyi keçirilib

Bakı İdman Sarayında yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan birinciliyi start götürüb. 1999-2000-ci il təvəllüdlü idmançılar arasında keçirilən yarış Dünya Güləş Birliyinin mövcud qaydalarına əsasən təşkil olunub. Yarışda AGF-nin nümayəndəlikləri üzrə keçirilən seçim turnirlərində qalib gəlmiş güləşçilər ayrılmış saya uyğun olaraq iştirak edir. İlk yarış günündə yunan-Roma güləşi üzrə 42, 46, 50, 54, 58 və 63 kq çəkidə 142 yeniyetmə pəhləvan yarışıb. Yarışın ikinci günündə yunan-Roma güləşi üzrə 69, 76, 85 və 100 kq, sərbəst güləş üzrə 42, 46 və 50 kq çəkidə 148 yeniyetmə pəhləvan yarışıb. Son yarış günündə sərbəst güləş üzrə 54, 58, 63, 69, 76, 85 və 100 kq çəkidə 189 yeniyetmə pəhləvan yarışıb. Bütün çəki dərəcəsində qalib gəlmiş idmançılar medal və diplomlarla təltif olunublar.



# Səmtimüəyyənetmə üzrə kubok yarışı

May ayının 29-da Dənizkənarı Milli Park - İçərişəhər ərazilərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş səmtimüəyyənetmə üzrə kubok yarışı keçirilib. Vergilər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Gənclər və İdman Nazirliyi, Dənizkanarı Bulvar İdarəsi, İçəri Şəhər Tarix-Memarlıq Qoruğu İdarəsi, «İrəli» İctima Birliyinin və Türkiyə Səmtimüəyyənetmə Federasiyasının dəstəyi ilə keçirilən yarışda 26 komandadan və fərdi iştirakçılardan ibarət 280 idmançı müxtəlif kateqoriyalar üzrə mübarizə aparıb.

Gərgin keçən mübarizədə komanda hesabında Xüsusi Dövlət Mühafizə Xidmətinin komandası qalib gələrək yarışı ilk pillədə başa vurub. «Neftçi» idman klubu ikinci, «İrbis» klubu isə üçüncü olub. Yarışda qalib gələn idmançılara diplom və medallar, qiymətli hədiyyələr təqdim edilib.

# Yunan-Roma güləşi üzrə açıq rayon birinciliyinin qalibləri müəyyənləşib

28 May - Respublika Günü münasibətilə Xızı rayonunun Şuraabad qəsəbəsində 2001-2003-cü il təvəllüdlü yunan-Roma güləşçiləri arasında açıq rayon birinciliyi keçirilib. Birincilikdə 12 komanda, ümumilikdə 130 güləşçi medallar uğrunda mübarizə aparıb. Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Namiq Abdullayev, ikiqat paralimpiya çempionu cüdoçu İlham Zəkiyev və digər çıxış edənlər yarışın əhəmiyyətini yüksək qiymətləndiriblər. Vurğulanıb ki, güclü idman ölkəsinə çevrilən Azərbaycanın Olimpiya hərəkatında fəal iştirakı, idmançılarımızın göstərdikləri yüksək nəticələr respublikamızın bu sahədə güclü potensiala malik olması ilə yanaşı, dövlətin diqqət və qayğısını əks etdirir.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Səid Xəlilov (26 kq), Seymur Qasımov (29 kq), Rəvan Nuriyev (32 kq), Allahşükür Əliyev (35 kq), Əli Həsənov (38 kq), Orxan Nəsibov (42 kq), Əli Rəhimli (46 kq), Ümid Ərzumanov (50 kq), Arif Məmmədov (54 kq), Heybət Abdullayev (58 kq) və Ağaseyid Əlizadə (63 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## mozaika

# Dünyanın ən qədim tarixi daşları

abida

İngiltərənin Wiltshire bölgəsində yerləşən «Stonehenge» abidəsi Neolit dövrü ilə bürünc dövrü arasında təbii olaraq yaranan ən qədim tarixi abidələrdəndir. «Stonehenge» qədim ingilis dilində «asılmış daşlar» deməkdir.

Abidə dairəvi şəkildə yerləşən dik daşlardan və kurqanlardan ibarətdir. Arxeoloqlar «Stonehenge»nin xiyası hesab edilir və İngiltərə tarixi abidələrinə nəzarət qurumu - «English Heritage» tərəfindən idarə olunur.

Abidənin maraqlı cəhətlərindən biri də yarandığı ilk vaxtlarda məzarlıq olması ehtimalıdır. Daha əvvəllər günəş-kosmos rəsədxana, günəş saatı ola biləcəyi iddia edilən «Stonehenge» beş yüz il ərzin-



eramızdan əvvəl 3000-2000-ci illərə aid olduğunu düşünürlər. Abidənin ətrafındakı balaca daş və xəndək onun ən qədim hissəsini təşkil edir və eramızdan əvvəl 3100-cü ilə aid olduğu ehtimal edilir. Bu tikinti astronomiya, astrologiya, həndəsə, meteorologiya və paqanizmlə əlaqələndirilməkdədir.

1986-cı ildə abidə UNESCO-nun mədəni irs siyahısına daxil edilib. Onun sahibi Britaniya monar-

də məzar sahəsi olaraq istifadə edilmişdi. Abidədən bir qədər aralıda bu tikintini inşa edənlərin yaşadıqları yeri təsvir edən süni «Neolit evləri» sərgilənir. Bu evlər 65 könüllü tərəfindən 10 min saata tikilib.

«Stonehenge»ni hər il 1 milyondan artıq turist ziyarət edir. 2014-cü ildə ABŞ Prezidenti Barak Obama və Britaniyanın Baş naziri Devid Kemeron da abidənin ziyarətçiləri arasında olublar.

azərbaycanın «Qırmızı kitab»ı

# Adi qızılquş

Göyərçindən xeyli iri olan qızılquşun bel tərəfi, qanadları və quyruğu göyümtül çalan boz, qarın tərəfi isə açıq rənglidir və köndələn naxışları var. Döşündəki naxışlar damcı formalıdır. «Bığları» parlaq qara, ayaqları sarıdır.

Qızılquş Avropa, Asiya, Afrika, Avstraliya, Şimali Amerika, Cənubi Amerikanın cənub-qərb hissəsində yayılıb. Azərbaycanda dağların yüksək qurşaqlarında məskunlaşıb. Oturaq, qışlayan və miqrant populyasiyaları var.

Yaşayış yeri və həyat tərzi: Sıldırım qayalıqlarda məskunlaşsa da yemlənmək üçün müxtəlif landşaftlara uçur. Əlçatmaz sıldırım qayalarda nəsil verdiyi üçün biologiyası Qafqazda zəif öyrənilib. Fevralın axırı - martda qayalıqdakı yuvasında görünür. Eyni yuvadan uzun müddət istifadə edir. Aprel ayında 2-3 yumurta verir, adətən 2 bala böyüdür. Avqustda pərvaz balaları görünür. Əsas yemi quşlardır: göyərçin, kəklik, ular, qışda ördək, qaz və s. Şikarını havadan çalıb ovlayır.

Qızılquş Qafqazda heç vaxt çoxsaylı olmayıb, XX əsrdə xeyli azalıb. Böyük və Kiçik Qafqazın Azərbaycana məxsus hissəsində nəsil verən qızılquşlar 10 cütdən çox deyil. Talış dağlarında nəsil vermir. Qışda Rusiyadan gələn populyasiyanın hesabına nisbətən çox olur.

Məhdudlaşdırıcı amillər: Qədim dövrlərdən ovçu quş kimi istifadə edilmiş, sonralar ovçuların rəqibi hesab edilərək tələf olmuş, eyni vaxtda yem bazası zəifləmişdir.

Ölkəmizdə ovlanması və satışı qadağandır. Azərbaycan Respublikasının və Naxçıvan MR-in «Qırmızı kitab»larına daxil edilib. CİTES, Bern və Bonn konvensiyalarına daxildir.



# Gəzən, oynayan və danışan...

texnologiya

Yaponiyada «RoBoFoN» adlı robot-telefonun ilk min ədədlik partiyası əvvəlcədən sifariş verilməklə elə ilk gündəcə satılıb. Bu barədə «Sharp» korporasiyasının Kommunikativ Robotlar Mərkəzinin direktoru Sinsuke Yamamoto bildirib.




«RoBoFoN» dünyanın ilk robotlaşdırılmış telefonudur. Smartfon kimi işləyən telefon rahatlıqla cibə yerləşir. Robot-telefon gəzir və oturur, mahnı oxuyur və oynayır, danışır. O, kinoteatrda film seçə, sahibinin zövqünə uyğun olaraq restoranda masa sifariş verə, alnına yerləşdirilmiş kamera vasitəsilə fotoşəkil çəkə və onları lazer proyektoru ilə nümayiş etdirə bilir. Telefonun dizaynı Beynəlxalq Kosmik Stansiyaya uçan məşhur «Kirobo» robotunun «atası» Tomotaka Takaxasi tərəfindən hazırlanıb.

Sinsuke Yamamotonun məlumatına əsasən, hazırda «RoBoFoN»un xarici dillərdə danışması üçün iş aparılır. Kompaniya bir müddət sonra kiçik insana bənzəyən robot-telefonun Yaponiyanın xaricində də satışlarına başlamağı planlaşdırır.

«RoBoFoN»un qiyməti 198 min yendir (təxminən 1800 dollar). Şirkət hər ay təxminən 5 min robot-telefon satmağa ümid edir.

# Material özünü bərpa edir

ixtira

ABŞ-ın Pensilvaniya Universitetinin alimləri plastik kütlə əsasında özü bərpa olunan dielektrik material yaratmağa müvəffəq olublar. Qeyri-adi material qrafeni xatırladan, lakin elektrik keçirməyən nitrid borun nanoborularından ibarət örtüyə malik polimer nanokompozit material əsasında yaradılıb. Bu örtük materialı daha da möhkəm edərək onun istilikkeçirmə xassəsini yaxşılaşdırıb. Alimlər özü bərpa olunan material yaratmaq üçün hidrogen əlaqələrin köməyi ilə nitrid borun nanoborularını birləşdiriblər. Nəticədə material elektrostatik cazibə qüvvəsinin sayəsində özünü tamamilə bərpa edə bilir.

Materialın bərpaetmə qabiliyyəti son dərəcə heyrətləndiricidir. Belə ki, tədqiqat zamanı alim nümunə materialı qayçı ilə kəsir, sonra onu birləşdirərək 80 dərəcəyədək qızdırır. Otuz dəqiqə sonra material öz xüsusiyyətlərini tamamilə bərpa edir və möhkəmliklə bağlı sınaqdan uğurla keçir.



## Müdriklər deyib ki...

*«Dil millət üçün bir güzgüdür, biz bu güzgüyə baxanda böyüdülmüş əksimizi görürük».*

*Fridrix Şiller (1759-1805)*

